
AŞURA QİYAMI
İMAM XOMEYNİ (r.ə)
كل يوم عاشورا
قيام عاشورا
امام خمینی ره

**İMAM XOMEYNİ (r.ə)**

AŞURA QİYAMI

İMAM XOMEYNİ (r.ə)

# AŞURA QİYAMI

## İMAM XOMEYNİN KƏLAM VƏ PƏYAMINDAN

İmam Xomeyni həzrətlərinin əsərlərini tənzim
və nəşr edən müəssisə
Beynalxalq işlər şöbəsi

| | |
|---|---|
| **Kitabın adı:** | Aşura qiyamı |
| **Müəllif:** | İmam Xomeyni (s.ə) həzrətlərinin kəlamları və pəyamlarından seçilmişdir |
| **Nəşr edən:** | İmam Xomeyni əsərlərini tənzim və nəşr edən müəssisə ilə əlaqədə olan Beynalxalq əlaqələr şöbəsi |
| **Çap tarixi:** | 1373/ payız (1994) |
| **Ünvan:** | İran-Teharan Bahünər prospekti Yasir küçəsi nömrə 3. |

**Telefon**
**Faks**
**Teleks**

Salam olsun Əli oğlu Hüseynə. Az say köməkçiləri ilə xilafəti qəsb edənlərin zülmkar təşkilatını dağıtmaq üçün qiyam etdi və köməkçilərinin az olmasına baxmayaraq zalımlarla sazişə girmək fikrinə düşmədi, Kərbala məntəqəsini özünün, övladının və az saylı köməkçilərinin qətlgahı seçdi və «Heyhat minnəz-zillə» sədasını haqsevənlərin qulağına çatdırdı».

**İmam Xomeyni**

# MÜQƏDDİMƏ

**Allahın adi ilə**

Salam olsun şəhadət məktəbinin bayraqdarına.
Salam olsun tarixdə əbədi qalib gələn məzluma.
Salam olsun Hüseyn (ə) və onun səhabələrinə.
Və salam olsun o Aşuranın həqiqi övladı imam Xomeyniyə və onun köməklərinə.

Şəhadət məktəbi ardıcıllarını təqdim etdiyimiz bu toplu[1] şəhidlər ağasını rəhbər tutmaqda özü kimi bir örnək olan böyük bir insanın sözlərindən ibarətdir. Bu böyük insan zülm qaranlığının yer üzünə çökdüyü qaranlıq bir dövrdə şəhadətin parlaq məşəlini götürdü, qiyam bayrağını qaldırdı, sükut və zəiflik ləkəsini Hüseynin qırmızı yolu qabaqcıllarının pak ətəyindən sildi, polad və dəmir hakimiyyəti dövründə müstəzəflərə və ayağı yalınlara «ehdəl-Hüseyn» və «qanın qılınca qələbə çalması» şüarların bir daha xatırlatdı. Nəhayət əsrlər boyu zəncir vurub, Kərbalanın qanı hadisəsini və Aşura sevgisini nəsildən-nəsilə gözyaşı və qanla xatirələrdə saxlayanların əlləri və iradələri ilə zəmanənin Yezid hakimiyyətinə son qoydu. Belə bir insanın xatirəsi həmişə ürəklərdə yaşasın ki, belə bir həqiqəti söyləyirdi: «Bizm nəyimiz varsa Məhərrəmin və Aşuranın bərəkətindəndir». Ümid vedirik ki, Hüseyn yolunun vurğunları və Xomeyni yolunun yolçuları keçmişdə olduğu kimi azadələr ağasını rəhbər tutmaq ənənəsini qoruyub saxlayacaq və sarsılmaz «Vilayət» qalasında islam inqilabının müdafiəsində möhkəm dayanacaqlar və belə bir qiymətli ilahi əmanəti, müqəddəs islam respublikası sistemini dünya səviyyəsində ədaləti yayan vəd edilmiş imamın zühuruna kimi saxlayacaqlar. İnşallah.

**İmam Xomeyni (r.ə) əsərlərini tənzim və**
**nəşri müəssisəsi, beynəlxalq işlər şöbəsi**

---

[1] Bundan əvvəl İmam Xomeyninin sözlərində və pəyamında «seçki və parlament», «Həcc» habelə «qısa sözlər» və mövzui vəsiyyətnamə» başlıqları altında dörd məcmuə bu müəssisə tərəfindən nəşr olunmuşdur».

# BİRİNCİ HİSSƏ

## MƏHƏRRƏM VƏ AŞURA HAQQINDA ÜÇ ÇIXIŞ:

### 1 – Tehranın qərb hissəsi ruhanilərinin yığıncağı qarşısında

58/7/30 1979

**Bismillahir-Rəhmanir-Rəhim**

İslamı indiyə kimi, bizim burada əyləşdiyimiz zamana kimi Seyyidüş-şühəda (İmam Hüseyn) diri saxlamışdır. Seyyidüş-şühəda (ə) hər nəyini, bütün gənclərini, mal-dövlətini, varı olan hər nəyini (mal-dövləti ki, yox idi), səhabələrdən, cavanlardan nəyi vardırsa, Allah yolunda verdi. İslamı gücləndirmək və zülm ilə müxalif olduğunu göstərmək üçün qiyam etdi. İndiki imperiyallardan böyük olan imperiyaya qarşı qiyam etdi. Az bir tedadla[1] qiyam etdi. Şəhid olmaqla qələbə çaldı. O, böyük zülm aparatına qələbə çaldı və onları məğlubiyyətə uğratdı.

Biz, onu izləyənlər, Həzrəti İmam Sadiq[2] səlamullah əleyhi və əimməyi-huda əleyhissəlamın tövsiyələri ilə yas məclisləri saxlayanlar da eyni problemlərlə üzbəüz olmuşuq, zülmün qarşısındayıq, zülmkarların zülmü qarşısındaydıq. Biz və bizim xətiblərimiz Kərbala məcarasını[3], bir dəstənin (güclü iman sahibi olan kiçik bir dəstənin) böyük bir tağut rejimi

---

[1] Dövrün imperatoru Yezid ibn Müaviyə qoşunları ilə döyüşdə İmam Hüseyn sahabələrinin sayı 72 nəfər idi. Bu az sayın qarşısında dayanan Yezid qoşunlarının sayı isə on minlərlə nəfərə çatırdı. Bu qanlı həmasədə İmam Hüseyn (ə) bütün sahabələri ilə birlikdə şəhid oldu, ailələri isə əsarətə alındı.

[2] İmam Cəfər Sadiq ibn Məhəmməd (ə) şiələrin altıncı imamıdır (83 -143 h.q)
İslam maarifinin bərpa edilməsində neçə-neçə elmi hövzələrin təşkilində və mömin qüvvələrin yetirilməsində, o dövrdə yaranmış əlverişli şəraitə görə o Həzrət müstəsna rol oynamışdır. Buna görə şiə məzhəbini ona mənsub etməklə Cəfəri məzhəbi adlandırırlar.

[3] İmam Hüseyn (ə) Əmirəl-möminin (ə) oğlu və şiələrin üçüncü imamı 61-ci h.q ilində o zamanın xəlifəsi Yezid ibn Müaviyənin pozğun hökumətinə qarşı qiyam etdi. İki qoşun Kərbala adlı bir yerdə bir-birinin qarşısında dayandılar. Bu tarixi həmasədə İmam Hüseyn (ə) 72 nəfərə çatan övladı və səhabələri ilə birlikdə şəhid oldu, ailəsi isə əsir düşdü.

ilə qarşılaşdığını diri saxlamışdıq. Şəhidə ağlamaq qoruyub saxlamaqdır, bu hərəkəti qoruyub davam etdirməkdir. Rəvayətlərdə «hər kim ağlatsa ya ağlamaq dərəcəsində kədərlənsə mükafatı Behiştdir» deyildiyi ona görədir ki, özünü ağlar halına salan, simasını kədərləndirib ağlamaq halına düşən (əslində) bu hərəkatı, İmam Hüseyn (ə) hərakatını qoruyub saxlayır. Bizim millətimizi bu kimi məclislər qoruyub saxlayır. Bizim millətimizi bu kimi məclislər qoruyub saxlamışdır. Rzaxan, Rzaxanın SAVAK məmurları bütün yas məclislərini boş yerə yasaq etməmişdilər, bu iş boş yerə deyildi. Rzaxan boş yerə bu kimi işlərlə müxalif deyildi. Rzaxan mütəxəssislərin məmuru idi, mövzunu başa düşənlərin məmuru idi. Millətlərin və şiələrin adət-ənənələrini öyrənən düşmənlərimiz bilirdilər ki, nə qədər bu məclisər var, nə qədər məzlumun mədhinə və zülmkarın ifşasına dair növhə və şeir söyləmək vardırsa, onlar öz məqsədlərinə çata bilməyəcəklər. Rzaxan[1] dövründə (bu işi) yasaq etdilər, İranda bütün yas məclisləri yasaq oldu. Öz işlərini gördülər, mənbər əhlinin əllərini bağladılar, ruhanilərin əllərini bağladılar, bunları təbliğ etməyə qoymadılar, özləri isə təbliğ etməyə başlayıb, bizi gerilədib bütün minbərlərimizi taladılar. Məhəmmədrza[2] dövründə də belə idi, lakin ayrı formada, qılınc gücünə yox, ayrı bir formada bu dəstəni sıradan çıxarmaq istəyirdilər. İndi də həmin adamlar, lakin bu dəfə gənclərimizi oyuncaq edirlər. İndi də elədir, yas məclisləri yasaq edən Rzaxan dövründəki məsələdir.

İndi isə bir dəstə «yox, rövzə oxumayın deyirlər. Bunlar rövzənin nə olduğunu bilmirlər. Bunlar yas saxlamağın mahiyyətini başa düşmürlər. Bunlar bilmirlər ki, İman Hüseyn hərakatı bu hərəkatı (İran İslam inqilabı hərəkatını) meydana gətirmişdir. Bu hərəkat o hərəkatın tabeyidir, o hərakatın saçağıdır. Onlar bilmirlər ki, İman Hüseyn matəmində ağlamaq

---

[1] İranın keçmiş şahının (Məhəmmədrza) atası Rzaşah İngiltərə hökümətinin hazırladığı planı həyata keçirərək 1920-ci ildə hərbi çevriliş təşəbbüsünə girdi və 1924-cü ildə şahlıq taxtına çıxdı. Şah olduqdan sonra birinci təşəbbüs məktəblərdə Quranın və din mövzuların tədris olunmasının və camaat namazı qılınmasının qarşısını almaq idi. Beləliklə İranın hər yerində din mərasimlərinin keçirilməsi və rovzə oxumaq yasaq oldu. Ölüyə yas saxlamağı belə məhdudlaşdıraraq bu haqda müəyyən formalar verildi.

[2] İmam həzrətlərinin «Məhəmmədrza»-dan məqsədi İranın keçmiş şahıdır ki, islam inqilabının qızışmması ilə 1375-ci (hicri) dey ayının 26-da Amerika hökumətinin məsləhəti ilə İrandan qaçdı. O 1940-cı ildə sentyabrın 16-da birləşmiş dövlətlər tərəfindən atasının şahlıqdan azad edilməsindən sonra həmin dövlətlərin tərəfindən İran şahı oldu və 1975-ci ilə kimi və 37 il şahlıq etdi. Onun şahlıq etdiyi dövr əvvəl Böyük Britaniya sonra isə ABŞ İrana mütləq hakim kəsildi və beləliklə ölkənin bütün maddi və mənəvi sərvətləri talandı.

az bir sayın böyük bir imperiya qarşısında dayanmaq ənənəsini diri saxlamaqdır. Bu bir əmrdir, İman Hüseyn (ə) əməlini davam etdirmək hamıya əmr olunmuşdur.[1]

كُلُّ يَومٍ عاشورا و كُلُّ أرضٌ كَربَلا

**«Kullu yovmin Aşura və kullu ərzin Kərbaladır»** sözü, hər gün və hər yerdə həmin hərəkəti davam etdirin, həmin həyata keçirin - deyə bir fərmandır. İmam Hüseyn az bir sayla hər nəyini islam yolunda verdi, böyük bir imperiya qarşısında dayanıb, «yox» dedi. Hər gün və hər yerdə belə bir «yox» sözü deyilməlidir. Gördüyünüz həmin məclislər bu «yox» demək ənənəsini qoruyub saxlamaq üçündür. Bizim yeniyetmələrimiz və cavanlarımız təsəvvür etməsinlər ki, məsələ, millətin məsələsi ağlamaqdır. Bunu başqaları sizə aşılamışlar. Onlar bu kimi ağlamaqdan qorxmurlar. Çünki bu ağlamaq məzluma ağlamaqdır, zülmkar qarşısında bağırmaqdır. Bayıra çıxan matəm dəstələri zülmkarlara qarşı durub, ona qarşı qiyam edirlər. Bunlar qorunub saxlanılmalıdırlar, bunlar din şuarlarımız olaraq, siyasi şuarlarımız olaraq saxlanılmalıdırlar. Bu qələmvuranlar sizi oyatmasınlar, cürbəcür adlar və yanılmış məsləklərlə hər şeyinizi almaq istəyirlər ki, bu məclislər, rövzə məclisləri, hər dövrdə məzlumun müsibətlərini, zülmkarların cinayətlərini xatırladan məclislər (adamı) zülmkarlara qarşı qoyur. Bunlar bu ölkəyə, islama xidmət etmiş olduqlarına vaqif deyillər, bunu gənclərimiz bilmirlər. Belə böyüklərə uymayın, bunlar xaindirlər. Sizə «ağlar millətdir bunlar» - deyə təkrarən aşılamaq istəyirlər xəyanət edirlər. Onların başçıları və ağaları bu ağlamaqlardan qorxurlar. (Onların) qorxmasının dəlili də Rzaxan getdikdən sonra İngiltərə Dehli radiosundan elan etdi ki, bu adamı biz gətirmişdik, biz də apardıq, doğru da deyirdi. İslamı tapdalamaq üçün gətirmişdilər. İslamı tapdalamağın yollarından biri də bu kimi məclisləri sizdən almaq. Gənclərimiz elə təsəvvür etməsinlər ki, məclisə gedib, matəmdən söz açıldıqda «yox bundan danışma» deməkləri ilə xidmət edirlər. Bu, səhvdir, (xətib) bu sözləri danışmalıdır, olunan zülmləri deməlidir ki, xalq keçmişdə nə olduğunu bilsin. Bu sözlər hər gün deyilməlidir. Bu iş siyasi xarakter daşıyır, ictimai xarakter daşıyır.[2]

---

[1] İmam Cəfər Sadiq (ə)-dan nəql olunmuş hədisin bir hissəsidir.

[2] Rzaxan İrandan qaçdığından iki ay sonra yəni 1940-cı il noyabrın 5-də London radiosu siyasi təfsirində İran və Rzaxan hökuməti ilə qərəzli dostluğundan açıqca danışaraq demişdi: «İngiltərənin İranla siyasi davranışı dostluq əsasında, qərəzli və qərəzsiz dostluq əsasındadır. Qərəzsiz dostluq alimlərə aiddir. Britaniya hökumətinə

## 2 – Qum və Tehrandan gəlmiş bir neçə alim, ruhani və pişnamazların yığıncağında

61/3/30 1982

Xətib cənablarına ərz etmək istədiyim mətləb budur ki, sizin gördüyünüz işin əhəmiyyəti, əza məclislərinin nə qədər dəyərli olduğu az məlum olmuşdur, bəlkə də bəzilərinə əsla aydın olmamışdır. Rəvayətlərimizə görə Kərbala məzlumun matəmində bir damla yaş tökməyin çox dəyərli olduğu, hətta təbakinin (ağlamsızlığın) belə dəyəri olduğu məzlumlar ağasının ağlamağa möhtac olması üçün deyil, məhz sizin və müsəlmanların savab aparması üçün deyil, hərçənd savabı da vardır. Lakin məsələ burasındadır ki, niyə əza məclislərinin bu qədər böyük savabı vardır? Niyə Allah-Təala göz yaşına, hətta bir damla göz yaşına və hətta ağlamsızlığa bu qədər savab verir? Bu mövzunun siyasi cəhəti tədriclə aydınlaşır. Sonralar inşallah daha da çox aydınlaşacaqdır. Əzadarlığa, əza məclislərinə, və ibadət cəhətdən əlavə mühüm bir siyasi cəhəti vardır. Bu rəvayətlər o zaman deyilmişdir ki, bu firqəyi-naciyə əməvilər[1] və daha çox Abbasilər[2] hakimiyyətinin giriftarı imişlər, az bir say, kiçik bir azlıq böyük qüdrətlərin giriftarı imişlər. O vaxt həmin azlığın siyasi fəaliyyətini formalaşdırmaq üçün bir yol tapdılar. Bu yolun

---

gəldikdə isə onun dostluğu təkcə İranla deyil, heç bir ölkə ilə qərəzsiz deyildir və qərəzsiz olmamalıdır... İran xalqının 1919-cu il müqaviləsinə bədbin olduğunu duyduqda o müqaviləni ləğv etdik. Əvəzində İran hökumətini gücləndirdik ki, ölkədə nizam-intizam yaratsın. Düşmənlər bunu aşılamaq istəyirldiər ki, güya Rzaxan biz idarə edirik və o bizim əmrimizlə işləyir. Lakin belə deyildi... Almanların şeytanlığı Şahın qafil olduğu mənafeyimizi hədələdikdə isə qəlbi istəyimizin xilafına olaraq bu işi (onu sürgün etməyi) gördük».

[1] Əməvilər hökuməti (Bəni-Ümeyyə) ilk dörd xəlifədən (Xüləfai raşidin) sonra 622-ci ildə islam ölkələrinin hakimiyyətini əldə etdilər və 750-ciilədək hakimiyyətdə qaldılar. Bəni-Ümeyyə hökumətinin təsisçisi Müaviya ibn Əbusüfyan idi. Bu sülalə müsəlmanların əqidə prinsiplərinə zidd olan aristokratiya və şahlıq üsul-idarəsini bərpa etdi. Tarix bu sülalənin hökuməti dövründə islam dünyasından baş vermiş acınacaqlı hadisələrilə doludur) o cümlədən amilləri tərəfindən Peyğəmbər və Əhli-beyti tərəfdarlarının öldürülməsi, dustaq və sürgün edilməsi və İmam Hüseyn (ə)-ın şəhid edilməsi o cümlədəndir.

[2] Abbasilər hökuməti (Bəni-Abbas) Əbdülmüttəlib oğlu Abbas sülaləsindəndir. Bu sülalənin təsisçisi Abdullah Səffah Bəni-Ümeyyə zülmündən cana gələn iranlıların yardımı ilə onlara qarşı qiyam edib hakimiyyəti ələ keçirdilər. 750-ci ildən 1258-ci ilədək bu sülalədən 36 nəfər islam ölkələrinin müəyyən hissəsində və qərbi Asiyada hökm sürdülər.

özü formalaşdırıcıdır. Bu da vəhy qaynaqlarından bu kimi məclislərin nə qədər əzəmətli olduğunu, və bu ağlamaqların nə qədər əhəmiyyətli olduğunu nəql etməkdir. Şiələr azlıqda olduğu bir dövrdə ağlamaq və əza məclisləri keçirməyi ardıcıllıqla davam etdirirdilər və bəlkə məsələnin nə olduğunu bilmirdilər, lakin məsələ azlıq təşkil edən bir dəstəni çoxluqdan ibarət bir dəstə qarşısında təşəkkülləşdirməkdir. Bu əza məclisləri tarix boyu ölkələrin hər yerlərində, islam ölkələrində şiəliyin və islamın beşiyi olan İranda bir növ təşkilatçılıq işi olub. İslamın məhv etmək, ruhaniliyin əsasını aradan qaldırmaq istəyən hökumətləri qorxuya salan həmin əza məclisləri, həmin dəstələr olub. Məni birinci dəfə[1] Qumda yaxalayıb aparanda yolda mənimlə maşında olan bəzi məmurlar mənə deyirdilər «Biz səni tutmağa gələndə qorxurduq ki, Qumda olan xeymələr bilsinlər, biz isə vəzifəmizi yerinə yetirə bilməyək». Bu məmurlar bir şey deyil, böyük qüdrətlər bu xeymələrdən qorxurlar. Böyük qüdrətlər belə bir təşkilatdan qorxurlar ki, onları təşəkkülləndirən vahid bir əl olmadan formalaşırlar. Böyük bir ölkənin hər yerində millət öz-özünə qaynayır, Aşura günlərində, məhərrəm və səfər aylarında həmin məclislər xalqı bir yerə toplayır. Bu mövzu islama xidmət etmək istədikdə, biri bir mövzunu demək istədikdə həmin xətiblərin və pişnamazların və imam-cümələrin vəsiləsi ilə dərhal hər yerə yayılır və xalqın bu ilahi və Hüseyn bayrağı altında toplaşmağı formalaşmasına səbəb olur. Böyük qüdrətlər öz məntəqələrində bir yığınacaq yaratmaq istədikdə neçə günlük ya neçə on günlük fəaliyyət göstərirlər. Bir şəhərdə çox zəhmət çəkib xərc tökdükdən sonra tutaq yüz, yüz əlli min nəfəri bir yerə yığa bilirlər ki, bir natiqin sözünü dinləsinlər. Lakin gördüyünüz kimi xalqı bir-birinə qovuşduran əza məclislərinin nəticəsində bir məsələ yaranmaq həmən təkcə bir şəhərdə deyil, ölkənin bütövlüyündə əhalinin bütün təbəqələri, Həzrəti Seyyidüş-şühədaəzadarları toplaşırlar. Bunun üçün də zəhmət çəkməyə və təbliğat aparmağa ehtiyac görünmür. Bir sözlə, Seyyidüş-şühəda (ə) ağzından çıxan bir sözlə hamı toplaşır. İmamlardan birinin (yaxşı

[1] İmam birinci dəfə 5 iyun 1963-cü ildə gecə saat 3/5 da tutulmuşdur. Onun yaxalanmasının səbəbi Aşura günü 3 iyundakı atəşin çıxışı idi. İmam həzrətləri bu çıxışda şah və İsrail hökumətini İran əhalisinin bədbəxtliyinə səbəb olan əsas amili kimi qeyd etmişdi. İmamın yaxalanması xəbəri İran millətini hiddətləndirdi və 15 Xordad (5 iyun) qiyamına səbəb oldu. Qiyam hərbiçilər tərəfindən vəhşicəsinə tapdalandı. İmam həzrətləri isə on ay dustaq olduqdan sonra nəhayət 1963-cü ildə 7 apreldə və xalqın rejimə göstərdiyi təzyiqi nəticəsində azad edildi.

yadımda deyil, bəlkə də İmam Baqirin)[1] «bir nəfər Minada[2] növhəxan qoyun ki, mənim üçün ağlasın, əza saxlasın» deməyi Həzrət Baqir (ə) bu işə möhtac olduğundan, ona şəxsi fayda verəcəyindən irəli gəlmir. Bunda siyasi cəhət görməlisiniz. Minada, adamlar dünyanın hər yerindən oraya gələndə bir ya neçə nəfərin Minada İmam Baqirə mərsiyə deməyi və ona zidd olanların cinayətlərini, misal üçün onu şəhid etmələrini söyləməyi bütün dünyada üsyan dalğaları yaradar. Bu əza məclislərini əhəmiyyətsiz saydılar.

Qoy qərbpərəstlər bizə ağlar millət desinlər, özümüzünkülər isə bir damla göz yaşının nə qədər savabı olduğunu bəlkə də qəbul etməsinlər. Bir əza məclisinin nə qədər savabı olduğunu dua haqqında deyilənləri, iki sətirdua oxumağı nə qədər savabı olduğunu beyinlərinə sığışdıra bilmirlər. Bu duaların, Allaha yönəlməyin, bütün xalqın bir nöqtəyə yönəlməyin siyasi cəhətini, bir milləti müəyyən islami bir hədəf istiqamətində səfərbər etdiyini dərk edə bilmir, beyinlərinə sığışdıra bilmirlər. Əza məclisləri təkcə Seyyidüş-şühədaya ağlayıb savab aparmaq və başqalarına da axirət mükafatı yerinə yetirmək üçün deyil (hərcənd savabı da vardır). Onun əhəmiyyəti siyasi cəhətidir ki, imamlarımız sədri-islamda planlaşdırmışlar. Bu plan həmişə qüvvədə olmalıdır. O da bir bayraq, bir ideya altında birləşməkdir. Həzrət Seyyidüş-şühəda əzasının bu işdə göstərdiyi təsiri başqa heç bir iş göstərə bilməz. Təsəvvür etməyin ki, əza məclisləri, sinə və zəncir dəstələri olmasaydı da 15 Xordad hərəkatı baş verəcəkdi. Seyyidüş-şühədanın qanından başqa heç bir qüvvə 15 Xordad[3] hərəkatını yarada bilməzdi. Həmin əza məclislərindən başqa

---

[1] Baqir ləqəbi ilə məşhur olan Mühəmməd ibn Əli (İmam Baqir) (ə) şiələrin beşinci imamıdır (58-114 h.q). O Həzrət 57 il yaşadı və 19 il imamlıq etdi. Quran və islam marifi sahələrində o Həzrətin elminin üzə çıxması nəticəsində Baqirül-ülum (elmləri yaran, elmlərə nüfuz edən) ləqəbi ilə tanınmışdı. O, ümmət içində geniş nüfuza malik idi. Xalq ona məhəbbət bəsləyirdi. Bir sıra sənədlərdən belə çıxır ki, o Həzrət islam dünyasından kənarda yaşayan əhalini də rəhbərlik edirdi.

[2] Mina Məkkədə hacıların qurban kəsdiyi bir yerdir.

[3] Şah hökuməti imam Xomeyni hərəkatının qarşısını almaq üçün qərbi ərbabları ilə məsləhətləşdikdən sonra çıxış yolunu imamı tutmaqda görür. Buna görə məmurlar 1963-cü il 5 iyunda gecə saat 3-də imamın evinə basqın edərək onu yaxalayıb, Tehrana aparırlar.

Az bir müddətdə imamın yaxalanması xəbəri ölkənin hər yerində yayılır. Xalq bu xəbəri eşitmək həmən 5 iyunda küçələrə tökülüb etiraz nümayişi keçirirlər. Ən böyük nümayiş Qumda olur. Hərbi qüvvə nümayişçilərə hücum edərək bir çox adamları şəhid edirlər. Şah hökuməti tərəfindən Tehranda fövqaladə vəziyyət elan olunur. Ertəsi gün nümayişin tapdalanması daha şiddətlənir. Minlərlə günahsız insan qanına bələnir. 15 Xordad faciəsi o qədər geniş idi ki, şahın neçə milion dollarlıq illik təbliğatı bu dəhşətli hadisəni gizli saxlaya bilmədi.

heç bir qüdrət hər tərəfli hücuma məruz qalmış bir milləti böyük qüdrətlərin hazırladığı planları puça çıxarmağa qadir edə bilməzdi. Həmin əza və matəm məclislərində məzlumların ağasına və Allahın razılığı uğrunda özünü, səhabələrini və övladını fəda edən bir şəxsin məzlumluğunu yetirmək üçün oxunan növhələr və deyilən mərsiyələr gəncləri elə yetirmişdir ki, döyüş cəbhələrinə gedib şəhid olmaq istəyir, şəhid olmaqla fəxr edirlər, şəhid olmadıqda narahat olurlar. Elə analar yetirir ki, bir cavanı gedən «Yenə bir-iki cavanım vardır» deyirlər. Seyyidüş-şühədanın əza məclisləri, kümeyl[1] və başqa dua məclisləri xalqı bu səviyyədə yetirir. İslam bu əsası belə qurmuşdur ki, həmin ideya və həmin proqramlarla davam etsin. Onlar (bizə ağlar millət deyənlər) doğrudan da məsələnin nə olduğunu, əza saxlamağın səbəbini, ağlamağın nə qədər dəyərli olduğunu və Allahın nə qədər mükafat verəcəyini bilsəydilər bizə ağlar millət deyil, həmasələr sahibi olan millət deyərdilər.

Onlar bunu bilsəydilər ki, hər şeyin Kərbalada itirən və qüdrətli bir hökumət dövründə yaşayan Həzrət Səccad (ə)[2] qalan dualar nə işlər görüb, xalqı necə də səfərbər edə bilir, onda bizə «dua nə üçündür» deməzdilər. Ziyalılarımız həmin məclislərin, duaların, mərsiyələrin siyasi və sosial cəhətlərini bilsəydilər «nə üçün bu işləri görürük?» deməzdilər. Bütün ziyalılar, qərb həvəskarları, və qüdrət sahibləri birləşsələr 15 Xordad hərəkatı yarada bilməzlər. Bu işə gücü çatan qüdrət hamını öz bayrağı altında birləşdirən qüvvədir. Bizim «islamı istəyirik, islam respublikasını istəyirik» - deyə bağırmağımız ona görədir ki, islam respublikasında islam və Allah naminə olduğu üçün bütün millət

---

İslam inqilabının qələbəsindən sonra (1979-cü ildə) imam həzrətləri 15 Xordad qiyamının ildönümü münasibətilə verdiyi bəyanatda 15 Xordad qiyamını islam ingilabının başlanğıcı hesab edir, həmişəlik olaraq bu günü hüzn günü elan etdi.

[1] Kümeyl duası incə və yüksək məzmunlu əsasən bu dua Həzrət Xızırın duasıdır. Həzrət Əli (ə) ona yaxın sahabələrdən olan Kumeyl ibn Ziyada öyrətmişdi. Bu dua cümə axşamı və nimeyi-şaban gecəsi (İmam Zaman (ə) anadan olduğu günü) düşmənlərin şərindən amanda qalmaq, ruzinin artması və günahların bağışlanması üçün oxunur.

[2] Zeynalabdin ləqəbini daşıyan və İmam Səccad adı ilə məşhur olan Həzrət Əli ibn Hüseyn (ə) şiələrin dördüncü imamıdır. (658-712).

İmam Səccad Əhli-beyt rəhbərliyinin ən gərgin dövründə yaşayırdı. Atasının qiyamı və bu qiyamın Kərbaladakı faciəli sonu xalqın diqqətini öz günahlarına cəlb etdi və onlarda Bəni-Ümeyyəyə nisbət nifrət yaratdı. İmam Səccad xalqın nifrətini istiqamətləndirmək və onu mübarizəyə çevirmək üçün həmin psixi amildən istifadə etdi. Onun məqsədə çatmaq üçün istifadə etdiyi yollardan biri də dua idi. Onun duaları dövrün hadisələrini təfsir edən, ümmət anlayışını əsaslandıran və təbliği məzmunları daşıyırdı. Məhəmməd (s) sülaləsi incili adı ilə məşhur olan Səhifeyi-Səccadiyyə onun əsərlərindəndir. Təfəkkür sərvəti olan bu əsər əxlaq normaları, fəzilət prinsipləri və tövhid elmləri verməklə başqa əsərlərdən seçilir.

birləşmişlər. Gördüyümüz kimi islam rüspublikası yaratmaq və Allah yolunda qiyam etdikləri üçün həmin islam respublikamız millətin tikənməz qüdrətindən və digərlərin himayəsindən necə də yararlanmışdır.

Millətimiz belə məclislərin qədrini bilməlidirlər. Həmin yığıncaqlar ki, Aşura[1] günlərində daha çox olur və başqa bu kimi mübarək günlər, həftələr və çıxışlar millətləri diri saxlayır. Bu yığıncaqların siyasi cəhətini başa düşsələr qərbpərəstlərin özləri belə öz millət və vətənlərinin tərəfdarı olsalar əza məclisləri keçirərlər. Mən ümid edirəm ki, bu məclislər daha çox və daha yaxşı keçirləcəkdir. Bunun da yerinə yetirilməsində böyük xətiblərdən tutmuş növhəxanlara kimi təsir edəcəkdir. Mənbərin yanında neçə beyt şeir oxuyan və mənbərə çıxan xətib özləri bilməsələr də (min heysü la yəşər) təbiidir ki, bu işə təsir buraxacaqlar. Biz elə bir səviyyəyə çatmışıq ki, millətimiz birdən inqilab etdi, bu millətdə misli heç yerdə gözlənilməyən partlayış baş verdi. Bütün cəhətlərdə yarlardan asılı olan bir millət, keçmiş rejim bu millətin hər şeyini itirmişdi, ölkənin bütün insanlıq şərəfini itirərək bizi hər sahədə yadlardan asılı etmişdi. Belə bir millətdə gözlənilmədən bir partlayış baş verdi. Partlayışın amili həmin məclislərdir ki, bütün xalq kütlələrini birləşdirir və diqqətlərini bir nöqtəyə yönəldirdi. Bu mövzunu xətiblər, peşnamazlar və imam cümələr mənim xəbərim olduğundan daha çox xalqa çatdırmalı və izah etməlidirlər ki, bizim ağlar millət olduğumuz təsəvvürü aradan qaldırılsın. Biz elə bir millətik ki, bu cür ağlamaqlarla iki min beş yüz illik bir qüdrəti məhv etdik.[2]

### 3 – Qum, Tehran qərbi və şərqi Azərbaycan ustanlarından gəlmiş bir dəstə ruhani və vaizlərin yığıncağında

61/7/25

Millətimiz altı aylıq körpədən tutmuş səksən yaşlı qocasına kimi Allah yolunda fəda etdi. Bu isə tarixin böyük insanı Həzrəti Seyyidüş-şühəda salamullah əleyhə tabe olmaq deməkdir. Həzrəti Seyyidüş-şühəda (ə) zülm, ədalətsizlik qarşısında, qəddar və zülmkar hökümət qarşısında nə etməli olduğumuzu hamıya öyrətdi. O, elə bu başdan bilirdi ki, getdiyi

[1] İmam Hüseyn (ə) 72 sahabəsi ilə birlikdə 680-cı il Məhərrəm ayının 10-da şəhid oldu. O tarixdən etibarən həmin gün «Hüseyn Aşurası» ya «Aşura» adlanır və şiələr hər il Məhərrəm ayının birinci on günlüyünü yas saxlayırlar.

[2] «Səhifəyi-nur» cild 16, səh. 207-210.

yolda səhabələrini və ailəsini fəda etməli, əzizlərini islama qurban verməlidir, lakin bu işin necə nəticə verəcəyini də bilirdi. Bu hərəkat, Hüseyn (ə)-ın hərəkatı olmasaydı Yezid[1] və yezidçilər islamı əks formada xalqa öyrədəcəkdilər. Əslində bunlar islama inanmır və islam övliyalarına həsəd aparır, nifrət bəsləyirdilər. Seyyidüş-şühəda bu fədakarlıqla onları məğlub etməkdən əlavə (çünki çox keçmədən bu məcaranın faciə və müsibət olduğunu başa düşüldü və Bəni-Üməyyənin zəifləməsinə səbəb oldu) tarix boyu insanların belə bir yolda getməli olduqlarını hamıya öyrətdi. Sayın azlığından qorxmadı. Say deyil, düşmənin düşmən qarşısında necə cihad etməsi təyindicidir. Ola bilsin ki, say çox olsun, lakin fərdlər keyfiyyətcə naqis olsun. Əksinə az bir say keyfiyyətcə qabiliyyətli və başı uca ola bilər.

Dünyanın böyük qüdrətləri, Şərq və Qərb bloklarında olanlar bizim inqilabımızla düşmənçilik etsələr, tutaq ki, dünyanın bütün informasiya vasitələri bu hərəkata zidd sözlər yazsınlar, yalanlar uydursunlar, həqiqət parlayacaq, aydınlaşacaqdır. Həzrəti Seyyidüş-şühədanı məzlumcasına şəhid edəndə də onu xarici, haqq hökumətə qarşı üsyana qaldıran bir adam kimi təqdim edənlər var idi. Allahın nuru isə parlayır, parlayacaq və dünyanı işıqla dolduracaqdır.

Bəs Məhərrəmül-həram ayı ərəfəsində bizim borcumuz nədir? Bu ayda hörmətli alim [məqsəd rühanilərdir] və xətiblərin borcu nədir? Məhərrəm ayında digər təbəqələrin borcu nədir? Seyyidüş-şühədana, onun səhabələri və Əhli-beyti bu vəzifənin nə olduğunu öyrətmişlər; Döyüş meydanında fədakarlıq göstərmək, meydandan kənarda isə təbliğat aparmaq. Həzrətin döyüş meydanında göstərdiyi fədakarlıq qədər ya ona yaxın miqdarda Həzrəti Səccadın və cənabi Zeynəbin[2] çıxışları Hüseyn (ə) hərəkatını yaymaqda və davam etdirməkdə təsir etmiş və Allah-Təala

---

[1] Yezid ibn Müaviyə 60-cı h.q ildə xəlifə oldu. O, biliksiz, fəzilətsiz və pozğunçuluqla məşhur olan bir gənc idi. Yezidin şahlığı üç il yarım çəkdi. Şahlığının birinci ilində Hüseyn (ə)-ın səhabələri ilə birlikdə öldürtdü, ikinci ilində Mədinəni (Həzrət Peyğəmbərin hökumət etdiyi və dəfn olduğu şəhər) taladı, üçüncü ildə Məkkəyə hücum etdi.

[2] Həzrət Zeynəb (s.ə) Həzrət Əli (ə) və Həzrət Fatimənin (s.ə) üçüncü övladıdır (65 h.q). O atası və böyük qardaşı İmam Həsənin xəlifəliyi və şəhid olmalarının şahidi idi. İmam Hüseyn (ə)-ın Mədinədən Məkkəyə, oradan Kərbalaya hicrət edəndə onunla idi. Kərbala faciəsinə qardaşlarının, qardaş oğullarının şəhid olmasının şahidi idi. Kərbala şəhidlərinin ailələrinin Aşura günü ikindi çağında Yezid qoşunlarının əlində əsir olanda təqdirə layiq müqavimət və dözümlə əsirlər karvanına başçılıq etdi. Kufə və Şam (Yezid hökumətinin paytaxtı) yollarında şəhidlərin peyamını qarşılaşdığı adamlara yetirdi. Kufə valisi ibn Ziyad və Yezid məclislərindəki atəşin və inqilabi çıxışları məşhurdur.

yanında dəyərə malikdir. Onlar bizə öyrətdilər ki, zülmkarın, zülmkar hökumətin qarşısında qadınlar və kişilər qorxmamalıdırlar. Cənab Zeynəb (s.ə.) Yezidin qarşısında dayanıb, onu elə təhqir etdi ki, Bəni-Uməyyə ömründə bu kimi təhqiramiz sözlər eşitməmişdi. Kufə və Şama gedərkən yolboyu onların çıxışları, Həzrət Səccad (ə)-ın minbərdəki çıxışı məcaranın nə olduğunu aydınlaşdırdı, məlum oldu ki, macəra batilin haqqa qarşı durması deyil, yəni «bizi əksinə təqdim etmişlər». Əslində yezidçilər güya «Seyidüş-şühəda hökumətin, Peyğəmbər xəlifəsinin qarşısında dayanan bir adamdır!!» - deyə təqdim etmək istəyirdilər. Həzrət Səccad isə bu mövzunu camaatın qarşısında ifşa etdi, cənab Zeynəb də elə elədi. Bu gün bizim ölkəmiz də belə bir vəziyyətdədir. Artıq Həzrəti Seyyidüş-şühəda bizlərin vəzifəsini müəyyənləşdirmişdir: Döyüş meydanında sayın azlığından qorxmayın, şəhid olmaqdan qorxmayın. İnsanın məqsəd və ideası böyük olduqca daha çox əzab-əziyyətə qatlaşmalı olur. Biz bu qələbənin müxalif cəhətlərini hələ yaxşı başa düşə bilmirik. Dünya İran millətinin qələbəsinin müxtəf cəhətlərini sonralar başa düşəcəkdir. Bu qələbə böyük olduğu qədər, bu mübarizənin genişliyi qədər, müsibətlər də geniş olmalıdır. Biz ki, bütün qüdrətlərin əlini, inşallah məntəqədəki mənafelərini kəsmişik təvəqqeyimiz olmamalıdır ki, bizlə işləri olmasın, bizə zərər-ziyan vurmasınlar. Biz indi də qabaqkı kimi olmalıyıq (mübarizəmizi davam etdirməliyik). İstər bütün ruhanilər, istər minbərə gedən xətiblər, pişnamazlar, ya imam-cümələr ya xalq kütlələri ilə əlaqədə olanların vəzifəsi Həzrət Seyyidüş-şühəda qiyamını, onun nə üçün olduğunu, nə sayla qiyam edib, nə kimi müsibətlərlə qiyam etdiyini, hələ fə davam etdiyini izah etməkdir.

Bütün xətiblər və hamımız bunu bilməliyik ki, Həzrəti Seyyidüş-şühəda (ə) qiyamı olmasaydı biz bu gün qələbə çala bilməzdik. Bizim qələbəmizə səbəb olan söz birliyi həmin əza məclislərinin, təbliğ məclislərinin, islam təbliğinin nəticəsidir. Məzlumların ağası millətimiz üçün elə bir şərait yaratmışdır ki, zəhmət çəkmədən hamı birləşmişdir. İslam dini, məscidləri mübarizə səngərinə çevirdi. İslami fəaliyyəti qabağa aparan həmin məscidlər, cəmiyyətlər, yığıncaqlar, cümə və camaat namazları qiyam üçün lazım şərait yaratdı. Xüsusilə Həzrəti Seyyidüş-şühəda öz əməli ilə döyüş meydanında və arxa cəbhədə necə davranmalı olacağımızı bizə, öyrətdi. (Yəni) islahlı mübarizə qabiliyyətinə malik olanlar necə mübarizə aparmalıdırlar və arxa cəbhədə olanlar necə təbliğ etməlidirlər. (O, bizə) mübarizənin keyfiyyətini, az bir sayın bir çox saya qarşı necə mübarizə aparmasını, bütün qüdrət

mənbələri əlində olan qəddar bir hökumətə qarşı az bir say necə mübarizə aparmalı olduğunu öyrətdi. Bunlar Həzrəti Seyyidüş-şühədanın bizə verdiyi təlimlərdir. Onun hörmətli Əhli-beyti və əziz övladı da bunu öyrətdi ki, elə bir müsbətdən sonra nə edilməlidir? Təslim olmaq lazımdırmı? Mübarizənin şiddətini azaltmaq lazımdırmı? Yoxsa cənab Zeynəb (s.ə)-ın elə bir böyük müsibətdən (ki, bütün müsibətlər onun yanında kiçikdir) sonra küfr və ilhada qarşı durub yeri gəldimi məsələni aydınlaşdırmalıyıq və Əli ibn Hüseyn (s) kimi xəstəliyə baxmayaraq yeri gəldimi təbliğ etməliyik?

Siz ruhani cənablar, eləcə də ölkəmizin bütün ruhaniləri Allahın bu nemətini və bəxşişini qoruyub saxlamalıdırlar, bu nemətin şükrünü yerinə yetirməlidirlər. Nemətin şükrünü yerinə yetirmək isə onu təbliğ etməkdir. Seyidüş-şühadanın əməlini, onun ideyasını, geydiyi yolu şəhadətindən sonra ona və islama aid olan qələbəni xalqa aydınlaşdırmalı və bunu öyrətməlidirlər ki, islam yolunda çalışmaq onun fəaliyyəti kimi olmalıdır. O, bilir ki, yüz nəfərdən az olan bir sayla elə zalım qarşısında dayanmaq olmaz.

Çənablar! Siz təbliğ etməlisiniz, Məhərrəmlikdir, məhərrəmi diri saxlayın. Bizim nəyimiz varsa, Məhərrəm ayındandır, bu kimi yığıncaqlardandır. Təbliğ işimiz də məhərrəm ayından, Seyidüş-şühadanın öldürülməsindən, onun şəhid olmasındandır. Biz bu şəhadətin dərinliyinə, onun dünyaya buraxdığı təsirinə varmalıyıq. Hələ də təsir buraxmaqdadır. Həmin möizə, çıxış və əza yığıncaqları olmasaydı xalqımız qələbə çalmazdı. Hamı İmam Hüseyn (ə) bayrağı altında qiyam etdi. Cəbhədən göstərilən səhnələrdə görürsünüz ki, hamı İmam Hüseyn eşqi ilə cəbhələrdə döyüşürlər. İndi isə Məhərrəm və Səfər yığıncaqlarında habelə ayrı vaxtlar əziz təbliğatçılar, böyük alimlər (ruhanilər) və xətiblər gündəlik məsələləri siyasi məsələləri, sosial məsələləri və xalqın hər tərəfdən düşmən hücumuna məruz qaldığı bir zamanda nə vəzifə daşıdıqlarını müəyyənləşdirməli və onları başa salmalıdırlar ki, biz hələ yolun yarısındayıq və inşəallah son məqsədə çatana kimi yolu davam etdirməliyik. Biz əgər indiyə kimi olduğu kimi (və Allaha şükür olsun ki, ölkə və millətimiz hazır olmuşlar) mübarizəmizi davam etdirsək mütləq qələbəyə çatacağıq, bu şətlə ki, soyumamalıyıq.

Qiyam etdiyimiz ilk çağdan xalqımız dünyaya bildirdi ki, (məqsəd) islam respublikası yaratmaq, tam müstəqillik əldə etmək, nə Şərqə, və nə Qərbə yönəlməkdir. Əvvəldən dünyaya elan etdi ki, biz nə Amerikanın,

nə SSRİ-nin nə də heç bir qüdrətin himayəsi altında deyilik. Biz, Allah təbarək və təalanın mərhəməti və İmam Hüseyn bayrağı olan tövhid bayrağı altındayıq. Aydındır ki, sizin dünyaya belə bir bildiriş elan etməyiniz nəticəsi olaraq hamı sizə qarşı çıxacaqlar. Bu başdan nəzərdə tutmalısınız ki, silahla təchiz olunmuş o qədər qüvvə qarşısına Seyyidüş-şühədanın qiyam edib çəhid olması kimi biz də şəhid olmağa hazırıq. Hal-hazırda görürsünüz ki, (düşmənin) iman-cümələrdən[1] bir sayını aradan aparılmasına baxmayaraq, qalan imam cümələr gülər üzlə elan edirdilər ki, biz şəhidlik sərhəddinə kimi bu vəzifəni daşıyacağıq və (şəhid olmağa) hazırıq. Bax hamı belə olmalıdır.[2]

---

[1] İranda 11 fevral 1978-ci ildə islam inqilabı qələbə çaldıqdan sonra Amerika başda olmaqla dünya imperializmi inqilabı məğlubiyyətə üğratmaq üçün cürbəcür məkirli planlar hazırlayıb həyata keçirdi. Xalq arasında təfriqə törətməkdən əlavə hərbi çevrilişə əl atmaq, səkkiz illik müharibəni qəbul etdirmək, terorçuluq və partlayış əməliyyatları (imperializm amili olan xalq mücahidləri təşkilatının vasitəsi ilə) həmin planlar seriyasından idi. İran İslam Respublikası bu insafsız əməliyyatlarda ən yaxşı qüvvə müdirlərindən bir sayını itirdi. Təbriz imam-cüməsi ayatullah Mədəni, Şiraz imam-cüməsi ayatullah Dəstğeyb, Yəzd imam-cüməsi ayatullah Səduqi və Əşrəfi İsfahani Kirmanşah imam-cüməsi bu qəbildəndir.

[2] «Səhifəyi-Nur» cild 17, səhifə 58-62.

# İKİNCİ HİSSƏ

## PROLOQ

## MƏHƏRRƏM ŞƏHİD OLMAĞIN QIZIL KİTABIDIR

Artıq Məhərrəm ayı, həmasə, fədakarlıq və qəhramanlıq ayı başlanmışdır. Bu ayda qan qılınca qələbə çaldı, bu ayda haqq gücü batili əbədilik məhkum etdi. Zalımlar alnına və şeytan hökumətinə ləğv olunmaq damğasını vurdu. Bu ay tarix boyu silahla qələbə çalmaq yolunu nəsillərə öyrətdi. Bu ay fövqəl-qüdrətlərin haqq sözü qarşısında məğlub olduqlarını qeyd etdi. Bu ayda müsəlmanların imamı bizlə tarix qəddarları ilə mübarizə yolunu öyrətdi. Bu ayda azadlıq və müstəqillik sevənlərin və haqq carçılarının düyünlənmiş yumuruqları ingilis ordusunun artilleriya və tanklarına qələbə çalmalı və haqq sözü batili məhv etməlidir.

***

Məhərrəm elə bir aydır ki, ədalət zülm qarşısında və haqq batil qarşısında qiyam etdi və tarix boyu haqqın həmişə batilə qalib olduğunu sübuta yetirdi.

Məhərrəm ayı islam mücahidləri və məzlumlarının ağasının vəsiləsi ilə canlandı (bərpa olundu) və islamı ucurum həddinə aparıb çıxaran Bəni-Ümeyyə rejimi və fasid ünsürləri hiyləsindən qurtardı. İslam, meydana gəldiyi ilk gündən şəhidlər və mücahidlərin qanı ilə (suvarılıb) yetişdi.

***

Şiə məzhəbinə görə Məhərrəm ayı qələbənin fədakarlıq və qanla əldə edilməsini təmsil edir.

***

Məhərrəm, necə də müsibətli və necə də quruculuq ayı və (düşmənləri) tapdalayandır. Məhərrəm ayı şəhidlərin ağası və

övliyalarının sevərinin hərakatıdır. (O) bu ayda tağut qarşısında qiyam etməsi ilə bəşəriyyətə qoruculuq və (düşməni) tapdalama yolunu öyrətdi. Zalımın məğlub olunub məhv edilməsi yolunu qurban verməkdə və qurban olmaqda bildi. Bu da millətimizə dünya yaşadıqca islam təlimlərinin baş lövhəsidir.

***

İslamı canlı saxlayan məhərrəm və səfər aylarıdır.

***

Məhərrəm və səfər aylarını Əhli-beyt (ə)-ın müsibətlərini xatırlamaqla diri saxlamalıyıq. Çünki Əhli-beyt (ə) müsibətlərinin xatırlanması indiyə kimi bu məzhəbi diri saxlamışdır.

***

Məhərrəm elə bir ayıdır ki, onda xalq haqq sözü dinləməyə hazırdır.

***

Artıq Məhərrəm ayı islam əsgərlərinin, hörmətli ruhani və xətiblərin və Seyyidüş-şühəda (ə) şiələrinin əlində başqa bir qılıncdır ki, ondan son dərəcədə istifadə olunmalıdır və ilahi qüdrətə arxalanmaqla bu zülm və xəyanət ağacının qalan köklərini kəsməlidirlər, çünki məhərrəm yezidçilərin və şeytan qurucularının məğlubiyyəti ayıdır.

# BİRİNCİ FƏSİL

## AŞURA QİYAMININ SƏBƏBLƏRİ VƏ AMİLLƏRİ

Sədri-islamda ədalət və azadlığın təməlini qoyan sonuncu peyğəmbər vəfat etdikdən sonra Bəni-Üməyyənin inhirafları nəticəsində az qalırdı ki, zalımlar islamı udsun və ədalət cinayətkarların ayağı altında məhv olsun, lakin Seyyidüş-şühəda (ə) böyük Aşura hərəkatını qaldırdı.

***

Az qalırdı ki, yezidçilərin qəddar hökuməti islamın parlaq simasına qırmızı qələm çəksin və böyük İslam peyğəmbəri (s)-in sədri-islam müsəlmanlarının üzücü zəhmətlərini və fədakar şəhidlərin qanını xatirələrdən silsin, korlasın.

***

Cahiliyyət dövrü qalıqlarının azğınlığı və **«la xəbərün caə vəla vəhyün nəzəl»**[1] şuarı əsasında planlaşdırılmış millətçilik və ərəbçilik proqramı bu mətləbi məhv etmək və ədalət əsasında qurulmuş islam hökumətini şahlıq üsul-idarəsinə çevirmək və islam dinini və vəhy mövzusunu təcrid etmək üzrə idi. Lakin birdən, ilahi vəhydən qidalanmış, peyğəmbərlər ağası Muhəmməd Mustəfa və övliyalar ağası Əli Murtəza ailəsində tərbiyə almış və Siddiqəyi-Kubra qoynunda böyümuş bir şəxsiyyət qiyam etdi və misilsiz fədakarlıqlar göstərərək ilahi bir hərəkatla böyük bir hadisə yaratdı.

***

Bəni-Üməyyə islamı məhv etmək əzmində idi.

---

[1] Bu Abdullah ibn Zübeyranın şeirinin bir beytidir: Ləibət Haşimü bilmülki fəla xəbərün caə vəla vəhyün nəzəl.

(Bəni-Haşim qəbiləsi səltənətlə oynadılar nə bir xəbər gəldi, nə bir vəhy nazil oldu) rəvayətdə deyilir ki, Əhli-beyti Şamda Allahın lənətinə gəlmiş Yezid sarayına aparanda o məlum ağacla Əba Əbdillah (ə)-ın pak dişlərinə vurur və yuxarıdakı şeiri oxuyurdu.

***

Alçaq Bəni-Üməyyə rejimi islam (hökümətini) tağut höküməti və onun banisini əks şəkildə təqdim etmək istəyirdi. Muaviyə və onun qəddar oğlu Allah peyğəmbərinin xəlifəsi adı ilə Çingizin[1] İranın başına açdığı oyunu islamın başına gətirdi və vəhy məktəbindən qaynaqlanan hökümətini şeytan üsul idarəsinə çevirdi.

Həzrəti Seyyidüş-şühəda (ə) görürdü ki, Müaviyə və onun oğlu (Allah hər ikisinə lənət eləsin) islam məktəbini məhv etmək istəyirdilər. İslamı əksinə təqdim edirdilər. İslam insan yetirməyə gəlib. Şəxsi qüdrət qazanmağa deyil, insan tərbiyə etməyə gəlib. Onlar, o ata-oğul - bu ata-oğul[2] islamı əksinə göstərir, çaxır içirdilər.

Həm peşnamaz idilər, həm də eyş-işrət məclisi qururdular. Hər iş görürdülər, camaat namazları da var idi. Peşnamaz da olurdular, qumarbazda peşnamaz. İmam cümə də olurdular, mənbərə də gedirdilər. Allah peyğəmbərin xəlifələyi adı ilə Allah peyğəmbərinə qarşı qiyam etmişdilər. Şuarları la ilahə idi, lakin ilahiyyata qarşı qiyam etmişdirlər. Əməl və davranışları şeytan davranışı, sözləri isə Allah peyğəmbərin sözləri idi.

***

Yezid həm qüdrət sahibi, həm də bir sultan idi. Ərz edirəm ki, o bütün şahlıq təşkilatına malik idi, (sözün qısası) Muaviyədən sonra o idi. Həsrəti Seyyidüş-şühəda hansı hüccət əsasında dövrünün sultanın nöqtə-müqabilində dayandı? (Necə deyərlər) zillüllah[3] qarşısında? «Sultana toxunmaq olmaz», hansı dəlillə sultana qarşı durdu? Elə bir sultan ki şəhadəteyni deyir və özunu Peyğəmbərin xəlifəsi adlandırırdı. (İmam

[1] Monqolların komandanı Cingizxan 1200-cü ildə «mən tanrının əzabıyam» şüarı ilə İranın abad şəhərlərinə yürüş etdi. Öncə Mərv, Buxara, Nişabur, Rey, Qum və Azərbaycanın böyük və abad şəhərlərin adamları qətliyam etdi. Ağacları yandırdı, kitabxana, məscid, bina və başqa mədəniyyət ocaqlarını uçurdu.

[2] Məqsəd Rzaxan Pəhləvi və onun oğlu Məhəmmədrzadır.

[3] Həzrət Peyğəmbərdən nəql olmuşdur ki, «Ədalətli və təvazökar padişah Allahın kölgəsi və yer üzərində süngüsüdür» və «Padşah Allahın yerdə kölgəsidir, acizlər ona sığınar və məzlumlar onun vəsiləsi ilə himayə olunarlar». İslam ölkələrinə hökm sürən zülmkar və pozğun xəlifə və şahları çoxu xalq kütlələrin bilməməzliyi və aşağı siyasi biliyə malik olduqlarına görə Peyğəmbərin bu kimi gözəl ifadələrindən sui-istifadə edərək zülm və pozğunluğun genişi yayılmasına rəğmən özlərini Allahın yer üzündəki kölgəsi qələmə vermişlər.

Hüseynin dəlili bu idi): o (Yezid) qaçar bir adam idi. Milləti istismar etmək istəyən bir adam idi. Milləti yemək istəyirdi. Millətin mənafeyini özü yemək və ətrafındakılara yedizdirmək istəyidi.

***

Sultanlıq üsul-idarəsini və vəliəhdlik ideyası Həzrəti Seyyidüş-şühədanın ona qarşı qiyam edib, şəhid olduğu hökumət tərzidir. Yezidin vəliəhdliyi və sultanlığını qəbul etməmək üçün qiyam etdi və bütün müsəlmanları qiyam etməyə çağırdı. Bu cür işlərin islama dəxli yoxdur, islamda sultanlıq və vəliəhdlik yoxdur.

***

Müaviyə və Yezid tərəfindən islamı hədələyən təhlükə kiçik idi. Onların təhlükəsi islam (hökumətini) sultanlığa çevirmələri, mənəviyyatı tağut şəklində salmaları idi. Onlar «Biz Allah peyğəmbərinin xəlifəsiyik» - deyə islamı tağut rejiminə çevirmək istəyirdilər. Bu, çox əhəmiyyətli idi, bu iki nəfərin islama vurmaq istədikləri ya vurduqları zərbəni qabaqkılar vurmamışdırlar. Bunlar islamın əsasını dəyişdirmək istəyirdilər. Bunların işi sultanlıq etmək, əyləncələrdə çaxır içmək və qumar oynamaq idi.

Allah peyğəmbərinin xəlifəsi olmaq hara, çaxır içmək və qumar təşkil etmək hara! Allah peyğəmbərinin həmin xəlifəsi namaz da qılır, peşnamazlıq da edir. Bax islamı hədələyən bu təhlükə böyük idi. Bu təhlükənin qarşısını Seyyidüş-şühəda aldı. Məsələ yalnız xilafəti qəsb etmək məsələsi deyildi. Seyyidüş-şühəda (ə) qiyamı tağut hakimiyyətinə zidd bir qiyam idi. İslamı elə bir vəziyyətə salmaq ideyasını daşıyan elə bir tağut hökuməti öz ideyasını həyata keçirə bilsəydi islam başqa bir şey olacaqdı, iki min beş yüz illik[1] tağut rejimi kimi. İslam, şahlıq üsul-idarəsinə və bu kimi rejimləri aradan qaldırmaq və dünyada ilahi bir hökumət yaratmaq istəyirdi, tağutu sındırıb, yerinə Allahı qoymaq

[1] Şah hökuməti 1970-cu il oktyabrın 2-də tarixin ən xərclisi olan şənlik mərasimini yəni İranda şahlıq üsul-idarəsi yaranmasının 2500 illiyini böyük bir təntənə ilə qeyd etdi. 1974-cü ilin sonunda, Rzaxanın anadan olmasının il dönümündə isə parlamentin milli və səna parlamentləri birgə iclasda qərara aldılar ki, İranın rəsmi tarixi hicri deyil, İranda şahlığı yaranması, yəni Əhəmənilər sülaləsinin Kir padşahı tərəfindən eramızdan əvvəl 529-cü ildə yaranması tarixi olsun. Bununla da İran əhalisinin son dərəcə yoxsulluqda yaşamasına, hər hansı siyasi fəaliyyətin yasaq olmasına və boğuntuluğun hökm sürməsinə baxmayaraq bu rejim şahlığın 2500 illiyinə fəxr edirdi.

istəyirdi. Onlar isə Allahı götürüb yerində tağutu əyləşdirmək istəyirdilər, cahiliyyət dövrünü bərpa etmək istəyirdilər. Seyyidüş-şühəda (ə) öldürülməsi məğlubiyyət deyildi. Çünki o, Allah üçün qiyam etmişdi, Allah üçün qiyam etməkdə məğlubiyyət yoxdur.

***

Onlar (Bəni-Ümeyyə) islamın əsasını aradan aparmaq və ərəb ölkəsi yaratmaq istəyirdilər. Bu iş (Seyyidüş-şühədanın qiyamı) səbəb oldu ki, ərəb, əcəm və bütün müsəlmanlar başa düşdülər ki, yox, deyəsən məsələ ərəbçilik, farsçılıq və bu kimi mövzular deyil, Allah və islam məsələsidir.

***

Seyyidüş-şühəda gördü ki, bunlar islam məktəbini batırırlar, islam xəlifəliyi adı ilə o (islama zidd) işlər görür, zülm edirlər. Dünyaya yayılır ki, Allah peyğəmbərinin xəlifəsi bu işləri görür. Həzrət Seyyidüş-şühəda isə gedib ölməyi, Müaviyə və onun oğlunun əsərlərini məhv etməyi özünə borc bildi.

Həzrət Seyyidüş-şühəda az bir sayla Yezidə qarşı hərəkət etdi. Əlbəttə Yezid quldur və qüdrətli bir hakim idi, islamiyyət göstərirdi. Bunlarla qohumluğu[1] da var idi. İslamiyyət göstərirdi, öz təsəvvürünə görə höküməti islami bir hökumət idi, özünü Allah peyğəmbərinin xəlifəsi bilirdi. Lakin məsələ burasındadır ki, zalım bir şəxs idi və nahaqq yerə bir ölkə müqəddəratına hakim olmuşdu. Həzrəti Seyyidüş-şühəda (ə)-ın az bir sayla buna qarşı qiyam etməsi nəhyəz-münkər etməyi özünə vəzifə bildiyindən irəli gəlirdi.

---

[1] Həm Bəni-Üməyyə (Əməvillər) həmdə Bəni-Haşimin (Haşimilər) Qüreyş qəbiləsindən və Əbumənaf qovmündən idilər. Haşimi tayfasından Peyğəmbər (s) zühur etdikdə Əməvilər bu hadisədən narahat oldular, Peyğəmbərə qarşı durub, onu hicrət etmək məcburyətində qoydular.

Haşimlər Mədinədə Peyğəmbərə qoşuldular, Məkkə isə Əməvilərin əlinə keçdi və beləliklə bütün Qüreyş onların bayrağı altında toplandı. Peyğəmbərin qələbə çalması onların hamısının müsəlman olmasına səbəb oldu, lakin Haşimilərə (Peyğəmbər sülaləsinə) nisbət bəslədikləri ədavət davam etdi və sonralar islama ağır zərbələr vurdu.

***

Seyyidüş-şühəda (ə) belə bir zalım hakimin xalqa istila tapdığını gördükdə təkidlə aydınlaşdırır ki, hər kim zalım hakimin hökumət etdiyini və xalqa zülm etdiyinin şahidi olsa, onun qarşısında dayanmalı və ona mane olmalıdır (bir ordu qarşısında heç sayılan az bir sayla olsa da).

***

O, bu sözü elə bir şəraitdə deyirdi ki, zalım sultan olan və bütün qüvvəyə malik olan Yezid qarşısında az bir sayla qiyam etmişdi. O Həzrətin bu əməli «sayımız azdır, qüvvəmiz azdır» - deyə gətirilə bilən hər hansı bir bəhanəni aradan qaldırır. O, bu sözü dövrünün zalım sultanına qarşı qiyam edərkən dedi. Xalqın qarşısında çıxış edərək qiyamının səbəbini açıqladı: «Mən ona görə qiyam edirəm ki, bu adam (Yezid) Allahın əhdini sındırıb, Peyğəmbərin sünnəsi ilə müxalif olub, Allahın haramlarını pozmuşdur. Peyğəmbər isə bu haqda buyurmuşdur: «Hər kim susub, vəziyyəti dəyişdirməyə təşəbbüs göstərməsə yeri cəhənnəmdə Yezidin yeri kimi olacaqdır, susanın yeri Yezidin yeridir».[1]

Biz isə Yezidin nə etdiyinə görə Həzrət Seyyidüş-şühəda (ə) ona qarşı qiyam etməsinin və elə bir söz buyurub, göstəriş verməsini öyrənməliyik. Həzrəti Seyyidüş-şühədanın bu sözü hamıya aiddir, umumiyyət xarakteri daşıyır. «Mən rəa», hər kim görsə zalım bir sultan bu işləri görür və sussa, nə bir söz desə, nə bir iş görsə, yeri həmin zalım sultanın yeridir. Yezid zahirdə islamiyyət göstərən bir adam idi, özünü Peyğəmbərin xəlifəsi bilir, namaz qılırdı və bizim etdiyimiz əmələri yerinə yetirirdi. Lakin eyni halda günah işləri görür və Allah Peyğəmbərinin sünnəsinə zidd idi. Peyğəmbərin camaatla necə davramağa dair sünnəsinin əksinə edirdi. (Bu sünnəyə görə) qan tökməməlidir. O isə müsəlmanların qanını tökürdü, müsəlmaların əmvalı korlanmamalıdır, o isə müsəlmanların əmvalını korlayırdı. Atası Müaviyə

[1] Əbu Mixnəf Əbdülirzadan nəql etmişdir ki, Hüseyn (ə) Beyzı məntəqəsində öz səhabələri və Hürrün adamları qarşısında bir çıxış etdi. Allaha şükr və səna etdikdən sonra dedi: «Ey camaat Allahın peyğəmbəri (s) dedi ki, hər kim, Allahın haramını halal edən, onun əhdini sındıran, Allah peyğəmbərinin sünnəsinə müxalif olan, Allah bəndələri arasında günah və ədavətlə hökm edən zalım bir sultanı görüb, əməl və sözlə onu inkar etməsə, Allaha lazım olur ki, onu da həmin zalım sultanı apardığı yerə aparsın. «Tarixi Təbəri» cild 4, səh. 304.

də belə hökümət edirdi. Əmirəl-möminin (ə) ona qarşı çıxış etdi. Bu fərqlə ki, Əmirəl-möminin ordu sahibi idi. Seyyidüş-şühədanın (ordusu) isə bir fövqəl-qüdrət qarşısında az bir saydan ibarət idi.

***

İslamın heysiyyəti hədələnəndə islamın böyük şəxsiyyətləri canlarını ona vermişlər. Müaviyyə və onun olduğunu dövründə də vəziyyət belə idi. Onlar islamın simasını çirkinləşdirirdilər. Müsəlmanların əmri və Peyğəmbərin xəlifəsi adı ilə cinayət edirdilər, məclislərinin vəziyyəti bəllidir. Belə bir şəraitdə vəzifə tələb edirdi ki, islamın böyük şəxsiyətləri mübarizə aparsınlar və onların islam simasını çirkinləşdirdiklərini aydınlaşdırsınlar ki, sadə və qafil adamlar inamın Müaviyyə və Yezid xilafətindən ibarət olduğunu təsəvvür etməsinlər. Bax islamı bu işlər (Müaviyə və Yezidin gördüyü işlər) təhlükəyə sala bilər, buna görədir ki, belə bir vəziyyətdə insan ölsə də cihad etməli olur.

## AŞURA QİYAMININ HƏDƏFLƏRİ

Peyğəmbərlər hamısı cəmiyyəti islah etmək üçün gəlmişlər. Hamısı da bu fikirdə olublar ki, fərd cəmiyyətə fəda olmalıdır. Fərd nə qədər böyük olsa da, dünyada hər şeydən dəyərli olan ən böyük bir şəxs cəmiyyətin məsləhəti məsələsi meydana gəldikdə fəda olmalıdır. Seyyidüş-şühəda həmin ideyaya əsasən, yəni fərd cəmiyyətə fəda olmalıdır, cəmiyyət islah olmalıdır – deyə özünü və səhabələrini fəda etdi. «Liyəqumən-asə bilqist»[1], camaat arasında və cəmiyyətdə ədalət bərpa olunmalıdır.

***

O buna görə şəhid olub ki, ilahi ədalət bərpa olunsun, Allahın evi bərpa olunsun, Allahın evi amanda qalsın.

Seyyidüş-şühədanın, Həzrəti Sahibəz-zaman (ə.f)-ın, Adəmdən Xatəmə kimi bütün peyğəmbərlərin həayatı bu olmuşdu ki, zülm qarşısında ədalət hökumətini yaratmaq istəyrdilər.

***

Seyyidüş-şühəda (ə)-ın qiyamının səbəbi əvvəldən də ədaləti bərpa etmək idi. «Görürsünüz ki, yaxşıya əməl olunmur, pis işə əməl olunur»-deyə xatırladırdı.[2] Səbəb budur ki, yaxşıya əməl edib pisi aradan qaldırsın. Bütün azğınlıqlar pislərə əməl etməkdən irəli gəlir. Tövhidin düz istiqamətindən başqa nə varsa müngər sayılır və hamısı aradan

---

[1] «Hədid» surəsi, ayə 25-ə işarədir: ***«Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar. Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik ki, Allah, (Onu) görmədən Ona və elçilərinə kömək göstərənləri üzə çıxartsın».***

[2] Əqəbət ibn Əbilizaz nəql etmişdir ki, Hüseyn (ə) Zihisəm məntəqəsində ayağa qalxıb, Allaha həmd-səna etdikdən sonra dedi: **«Şahidi olduğunuz bir vəziyyət yaranmışdır, doğrudan da dünya dəyişilmişdir. Yaxşılıqlara arxa çevirib sürətlə keçməkdədir. Yaxşılıqlardan yalnız qabın dibindəki qalıq su qədəri və pis otlaqlardakı alqan bir yaşayış kimi qalmışdır. Görmürsünüzmü ki, haqqa əməl olunmur və batilin qarşısını alınmır? Mömin Allaha qovuşmağı arzulamaqda haqlıdır (belə bir yaşayışdan ölüm yaxşıdır). Mən doğrudan da ölümü səadət və zalımlarla yaşamağı işkəncə və alçaqlıqdan başqa bir şey bilmirəm»**. «Töhəfül-üqul» səh. 249.

getməlidir. Biz Həzrəti Seyyidüş-şühədanın tabeləri onun yaşayışını öyrənməliyik: Onun qiyamı və qiyamın səbəbi müngərdən çəkindirmək idi, cünki münkər aradan getməlidir. Zülm hakimiyyəti də münkərdir və aradan aparılmalıdır.

***

Seyyidüş-şühəda (ə) bütün ömrünü və həyatını münkəri aradan aparmaqda və zülmün hökumətinin və onun törətdiyi fəsadların qarşısını almaqda sərf etdi. Bütün həyatını buna sərf etdi ki, bu zülm hökuməti aradan getsin, münkərat aradan getsin və məruflara əməl edilsin.

***

Seyyidüş-şühəda (ə) bütün heysiyyətini özünün və balalarının canını bilə-bilə, fəda etdi. Adam onun Mədinədən Məkkəyə (Kərbalaya) gedərkən danışdığı sözləri eşidəndə başa düşdü ki, o, nə etdiyini bilmiş. «Görək nə olacaq» fikri ilə, (Kərbalaya) gəlmişdir. Höküməti ələ almaq ideyası ona bir fəxrdir. Həzrəti Seyyidüş-şühəda (ə) hökühməti ələ almaq üçün gəlməmişdi, deyə təsəvvür edənlər səhv edirlər. Bunlar hökümət üçün gəlmişdilər, çünki hökümət Seyyidüş-şühəda kimi adamların əlində olmalıdır.

***

Seyyidüş-şühəda (ə) məktəbin aradan getməkdə olduğunu görürdü. Seyyidüş-şühəda (Yezid qarşısında), Əmirəl-mominin Müaviyə qarşısında və Peyğəmbərin qüdrət sahibləri və kafirlər qarşısındakı qiyamı məhz bunun üçündür. Məsələ bu deyil ki, onlar bir ölkəni ələ keçirsinlər, çünki bütün dünya onların gözündə heçdir. Onalar məktəbi və məqsədi ölkə fəth etmək deyildir.

***

Seyyidüş-şühədanı (Kərbalaya) çəkib aparan məktəb idi... Onu, öz əqidəsi oraya çəkib apardı və hər şeyin əqidə və iman yolunda verdi. Öldü və (ölümü ilə) tərəf-müqabili məğlub etdi.

***

Həzrəti Seyyidüş-şühəda (ə) Yezidə qarşı qiyam etdi. Yəqin edirdi ki, Yezidi səltənətdən salmasına müvəffəq olmayacaqdır, rəvayətlərdə də belədir ki, mövzunu bilirdi.[1] Eyni halda zalım bir rejimə qarşı ölsən də qiyam etməlisən, - deyə qiyam etdi, öldürdü və öldü.

***

O Həzrət islam və müsəlmanların gələcəyini düşünürdü. Gələcəkdə islam onun müqəddəs cihadı və fədəkalığı nəticəsində yayılsın və cəmiyyətimizdə (bu dinin) sosial-siyasi sistemi yaransın, - deyə qiyam etdi, mübarizə apardı və fədəkarlıqlar göstərdi.

***

O (Seyyidüş-şühəda), bu qüdrət qarşısında müqavimət göstərib ölməyi özünə borc bilirdiki, vəziyyət dəyişilsin, özünün və yoldaşlarının fədəkarlığı ilə o qüdrəti ifşa və biabr etsin. O, zalım bir hökümətin ona aid olan ölkəyə müsəllət olduğunu görürdü. Öz vəzifəsini, ilahi vəzifəsini seçdi: Qiyam etməlidir, getməlidir, nə olursa olsun onunla müxalif olmalı və onu danmalıdır. Eyni-halda az bir sayın onların qarşısında dayana bilməyəcəkləri bu başdan bəlli idi, lakin vəzifə bu idi.

***

Lakin (Seyyidüş-şühəda) qiyam edib, qanını vermək, bununla da milləti islah etmək və Yezidin bayrağını yatırtmaq ona bir vəzifə idi, belə də oldu. Öz qanını, oğlanlarının və övladının qanlarını və hər şeyini islam yolunda verdi.

---

[1] Bir çox rəvaətlərə görə Allah bu mövzunu peyğəmbərlərə xəbər vermişdi, habelə Peyğəmbəri-Əkrəmin (s) və pak imamların sözlərində İmam Hüseyn (ə)-ın şəhid olmasına işarə olunmuşdur. O cümlədən İmam Hüseyn Bəni-Haşimə yazdığı məktubda deyilir: Bismillahir rəhmanire-rəhim. Hüseyn Əli ibn Əbutalibdən Bəni-Haşimə. Demək hər kim mənə qoşulsa şəhid olacaqdır, mənə qoşulmayan isə qələbəyə çatmayacaqdır. «Əllühufü əla qətlit tüfuf» səh.69.

***

İmam Hüseyn (ə) elə bir qüvvəsi yox idi, lakin qiyam etdi. Nəuzi billah, o da tənbəl olub yerində otursaydı və mənim şəri vəzifəm qiyam etmək deyildir, desəydi (nəcür olardı?) Əməvilər çox sevirdi ki, Seyyidüş-şühəda yerində otursun və danışmasın onlar isə murad miniyə minsinlər. Lakin o, Müslim ibn Əqili[1] göndərdi ki, xalqı islam hökumətini bərpa etmək və mövcud pozgun hökuməti aradan qaldırmaq üçün beyətə çağırsın. Əgər o da Mədinədə öz yerində otursaydı və o gəda beyət istəyəndə nəuzi billah bəli, - deyə cavab versəydi, çox şad olar və əllərini də öpərdilər.

***

Seyyidüş-şühəda özünü islam yolunda ölümə verdi.

***

Seyyidüş-şühəda (ə) bütün (sahabələrini), cavanlarını, var-dövlətdən nəyi vardırsa – var-dövlət yox idi – hər nəyi vardısa cavanı, sahabəsini Allah yolunda verdi. İslamı gücləndirmək və zülmə müxalif olmaq üçün, bu günkü imperiyadan daha böyük olan imperiya qarşısında qiyam etdi...

***

Seyyidüş-şühəda savab aparmaq üçün ölmədi. Savab onun üçün elə də məsələ deyildi. O, məktəbi qurtarmaq üçün və islamı yaymaq, bərpa etmək üçün getdi.

---

[1] İmam Hüseyn (ə) igid, bilik və təfəkkür sahibi olan əmi oğlusu Müslümü beyət almaq üçün Kufəyə göndərdi. Müslüm Kufə əhalisindən 18000 nəfərdən beyət aldı. O, bir məktub yazaraq imamdan istədi ki, Kufəyə doğru hərəkət etsin. Yezid tərəfindən Kufə, İraq və Əcəmə hakim təyin edilən Übeydüllah ibn Ziyad bu şəhərə gəldikdən sonra əhali Müslümün ətrafından dağılıb onu tək qoydular. Übeydullah belə bir vəziyyətdə camaatı İmam Hüseynə beyət etməkdən çəkindirib, Müslümü öldürtdü. Demək Müslim ibn Əql 680-cı il zilhəccə ayının 9-da şəhid oldu.

***

Peyğəmbər (s) bəzi müharibələrdə, o Həzrəti Əmir isə Müaviyə ilə müharibədə məğlub oldu. Həzrəti Seyyidüş-şühədanı öldürdülər, lakin (bu ölmək) Allaha itaət etmək idi. Allah üçün idi. Onun üçün tam bir heysiyyət idi. Ona görə məğlub olmaq deyildi, itaət idi.

## KƏRBALA ŞƏHİDLƏRİNİN ŞÜURLU SEÇİMİ

Aşura günü Seyyidüş-şühəda (ə) şəhid olmağa yaxınlaşdıqca ehtirası artırdı və ətrafındakı gənclər şəhid olmağa can atırdılar, hamısı da neçə saatdan sonra şəhid olacaqlarını bilirdilər. Onlar can atırdılar, çünki hara gedəcəklərini bilirdilər. Onlar nə üçün gəlmiş olduqlarını bilirdilər, Bilirdilər ki, İlahi vəzifəni yerinə yetirməyə, islamı qoruyub saxlamağa gəlmişlər.

***

Bildiyiniz kimi bəzi rəvayətlərdə deyilir ki, Aşura günartası yaxınlaşdıqca Hüseyn ibn Əli (ə)-in ehtirası artırdı, siması qızarırdı.[1] Çünki cihadın Allah yolunda və Allah üçün olduğunu görürdü (və bilirdi ki) Allah yolunda cihad edərək verdiyi əzizləri itirməmişdir, əslində o əzizlər axirət dünyasının zəxirələridirlər.

***

Həzrəti Seyyidüş-şühəda (ə)-ın şəhid olmasına dair rəvayət deyilir ki, Həzrət yuxuda Peyğəmbər (s)-i gördü. Peyğəmbər, o məzluma buyurmuşdu ki, «Sənin üçün cənnətdə bir mərtəbə vardır ki, məhz şəhid olmaqla ona çata bilərsən».[2]

---

[1] Həzrət İmam Səccad (ə) deyir: Hüseyn ibn Əli (ə) işi çətinləşdikdə səhabələri onun başqa bir əhval-ruhiyyədə olduğunu duydular. Onların özlərinin rəngi dəyişilir, bədənləri əsir və ürəklərinə qorxu çökürdü. Halbu ki, İmam Hüseyn (ə)-ın və bəzi yaxın səhabələrinin simaları parlayır, bədənləri sakitləşir və ürəkləri arxayınlaşırdı.

[2] İmam Hüseyn (ə) Mədinədən çıxmazdan əvvəl babası Peyğəmbərin ziyarətinə getmişdi. Qərbin üstündə neçə anlıq yuxu apardı. Yuxuda Peyğəmbəri (ə) gördü: «Peyğəmbər ona yaxınlaşdı, o, yuxuda idi. Hüseyni (ə) bağrına basdı, iki gözünün arasını öpüb buyurdu: Atam sənə qurban olsun sanki görürəm, mənim şəfaətimə ümid edən ümmətimdən bir dəstəsi sənin qanına batmışlar. Bunlar Allah yanında şəfaətdən yararlanmazlar. Oğlum! atan, anan və qardaşın sənin görüşünün şövqündədirlər, sən isə onlara qovuşacaqsan. Doğrudan da cənnətdə sənin üçün bir rütbə vardır ki, məhz şəhadətlə ona çata bilərsən. (İmam bu yuxunu Mədinədən çıxarkən və Peyğəmbərin (ə) məzarında görmüşdü.) «Bihar» cild 44, səh. 313.

***

Həzrəti Əli ibn Hüseyn (ə) o ağır şəraitdə, yəni hamının öləcəyi qaçılmaz olduğu bir şəraitdə, (mənbər əhli belə nəql edir ki,) «Biz haqlı deyilikmi? - deyə İmam (ə)-dan görüşdü. İmam buyurdu: Niyə? [Biz haqlıyıq]. Dedi biz haqlıyıqsa, bəs ölümdən niyə qorxaq?»[1]

***

Aşura günü günorta çağı döyüşün qızğın yerində səhabələrdən biri artıq günortadır, - deyə (namaz vaxtı olduğunu) Seyyidüş-şühəda xatırlatdı. Həzrət, namazı yadıma saldın, Allah səni namaz qılanlardan hecab etsın, dedi və oradaca namaz qıldı. Biz döyüşdəyik demədi, yox, o, namaz üçün döyüşürdü.[2]

Allahın razılığı nəzərinizdə olsun, özünüzü Allahın bəndəsi bilin, elə ki, qarşınıza nə çıxsa razısınız. Allahın xalis bəndələri və böyük övliyaları elə idilər. Rəvayyətə görə Aşura günü günorta yaxınlaşdıqca, cavanları bir-bir getdikcə siması cicəklənirdi, cünki məqsədə yaxınlaşdığını görürdü.

***

Ordu, Sepah[3] və digər silahlı qüvvələrdə xidmət göstərən igid və döyüşçü gənclər elə bir əbədi şəhidi rəhbər tutmuslar ki, tarixin dediyinə görə ətrafindakı cavanları və köməkləri şəhid olduğca mübarək siması çiçəklənir, şücaət və iradənin izi daha da artıq qabarırdı.

---

[1] «Tarixi Təbəri» cild 4, səh. 308.

[2] Əbu Səmamə Saidi səhabələrin bir-bir şəhid olduğunu görüb imama dedi: Ey Əba Əbdillah! Canım sənə qurban olsun, görürəm ki, onlar [kafirlər] sənə yaxınlaşırlar, Allaha and olsun mən səndən qabaq ölməyincə sən ölməyəcəksən. Vaxtı çatmış namazı qılarkən Allahıma qovuşmağı sevirəm. Rəvayət edən (ravi) deyir ki, bunu eşidən Hüseyn (ə) başını qaldırıb buyurdu: Namazı xatırlatdın, Allah səni namaz qılanlardan etsin. Sonra buyurdu: Qoşundan isdəyin, möhlət versinlər namaz qılaq. «Tarixi Təbəri» cild 4, səh. 334.

[3] İran İnqilab keşikçiləri Ordusu İran İslam Respublikasının silahlı qüvvələrinin ən böyük qoşunudur. 5 may 1979-ci ildə İslam inqilabının ilk günlərində Ayətullah Xomenyi tərəfindən yaradılmışdır. İran konstitusiyasına uyğun olaraq daxili sabitliyin təmin edilməsi, inqilabın qorunması və «azğınlığın» qarşısının alınması üzrə vəzifələri həyata keçirir.

## ƏBA ƏBDİLLAH QİYAMININ NƏTİCƏ VƏ İZLƏRİ

Əgər Aşura və Peyğəmbər Əhli-beytinin fədakarlığı olmasaydı dövrün taqutçuları besəti və Peyğəmbəri-Əkrəmin üzücü zəhmətlərini korlayacaqdılar (Əgər Aşura olmasaydı vəhy və kitaba bütlan qələm çəkmək istəyən Əbusufyançıların[1] cahiliyyətə əsaslanan məntiqləri və öz təsəvvürünə görə vəhy övladını şəhid etməklə islamın təməlini məhv etmək və «la xəbərün çaə və la vehyün nəzəl» şuarını açıqca elan etməklə ilahi hökümətin əsasını pozmaq istəyən qaranlıq bütpərəstlik dövrünü yadıgarı olan Yezid əziz islamın və Qurani-Kərimin başına nə oyun gətirəcəklərmiş bilməycəkdik), lakin Allahın iradəsi belə olub ki, qurtarıcı islamı və hidaytedici Quranı əbədilik saxlasın və vəhy övladı kimi şəhidlərin qanları ilə diriltsin və himayə etsin, ruzigarın ziyanından amanda saxlasın, nübüvvət şirəsi və vilayət yadigarı Hüseyn ibn Əli (ə) qiyama çatdırsın ki, özünün və əzizlərinin canını imanına və Peyğəmbəri-Əkrəm ümmətinə fəda etsin. Beləliklə də tarix boyu onun pak qanı qaynasın və Allah dinini suvarsın, vəhy və onu nailliyyətlərinin keşiyini çəksin.

***

Məzlumlar ağası və Quran həvəskarlarının Aşura günü şəhid olmaları islamın əbədi yaşayışı və Qurani-Kərimin əbədi həyatının başlanğıcı idi. Onların məzlumucasına şəhid olması və alüllahın əsarətə alınması İslam adı ilə və öz yanlış təsəvvürlərinə görə vəhy əsasını məhv etmək istəyən Yezidçilərin tax-tacını həmişəlik məhv etdi və süfyançıların yaratdığı cərəyanı meydandan çıxartdı.

***

O gün Yezidçilər cinayətkar əlləri ilə öz qəbirlərini qazdılar, özlərinin və zülmkar rejimlərinin əbədilik ölümünü tarixdə qeyd etdilər.

[1] Əbusüfyan Qüreyş qəbiləsinin başçısı və Peyğəmbəri-Əkrəmin (s) barışmaz düşməni idi. O, islama müxalif olan və müsəlmanlara əzab-əziyyət edən kafir və müşrikləri rəhbərlik edirdi. Müsəlmanlar Məkkəni ələ keçirməyincə islamı qəbul etmədi. Əldə olan rəvayətlərə əsasən o həqiqi iman gətirmiş və ürəyində islama inanmamışdı. 8-ci və 20-ci izaha müraciət edin.

Pəhləviçilər[1] və onların cinayətkar tərəfdarları 42-ci ilin 15 Xordadında isə öz zülmkar əlləri ilə öz qəbirlərini qazdılar və əbədilik olaraq devrilib məhv olmağı qazandılar. Allah şükr olsun ki, İranın böyük milləti qələbə və qüdrətlə onların qəbirlərinə lənət edir.

***

Əgər bu qiyam, Hüseyn (ə)-ın qiyamı olmasaydı Yezid və onun tabeləri islamı əksinə göstərirdilər. Onlar əvvəldən də islam inanmırdılar və islam övliyalarına həsəd aparır və ədavət bəsləyirdilər. Seyyidüş-şühəda öz fədakarlığı ilə nəinki onları məğlubiyyətə uğratdı, həm də bir az keçdikdən sonra camaat necə bir müsibətin baş verdiyini başa düşdü və həmin müsibət Bəni-Üməyyənin vəziyyətinin dağılmasına səbəb oldu.

***

İlahi vəhy şirəsindən qidalanan, peyğəmbərin ağası Əli Mürtazə ailəsində tərbiyə alan və Siddiqəyi-Tahirə Fatimə (s.ə) qoynunda böyüyən böyük bir şəxsiyyət qiyam etdi və nəzirsiz fədakarlığı və ilahi hərakatı ilə böyük bir hadisə yaratdı. Bu hadisə zülümkarların sarayını uçurtdu və islam məktəbini qurtardı.

***

Seyyidüş-şühəda (ə) böyük Aşura hərakatını yaratdı, fədakarlığı, özünün və öz əzizlərinin qanı ilə islamı və ədaləti qurtardı, Bəni-Ümeyyə üsul-idarəsini məhkum etdi, təməlini sarsıtdı.

***

Əgər islamın yüksək rütbəli himayəçisi fədakarlığı və onun səhabələri və qoruçularının fədakar və igidcəsinə şəhadəti olmasaydı, islam Bəni-Üməyyənin zalım və boğuntu rejimi əksinə təqdim olunacaq və Peyğəmbəri-Əkrəm və onun fədakar səhabələrinin zəhmətləri hədərə gedəcəkdi.

[1] İmam həzrətlərinin Pəhləvilərdən məqsədi Rzaşah Pəhləvi və Məhəmməd Rza Pəhləvidir.

***

Pak imamların çoxu ya öldürüldülər ya nə oldular, lakin məktəbləri qaldı. Seyyidüş-şühəda öldürüldü məktəbi isə qaldı, daha doğru məktəbi diriltdi. Öz ölümü ilə məktəbi diriltdi.

***

Haqq övliyalarının çoxu zahirdə məğlub oldu, məktəbləri isə amanda qaldı. Seyyidüş-şühəda (ə) bütün səhabələri və qohumları ilə birlikdə qətliam oldular, lakin məktəblərini yaydılar. Məktəbə gəldikdə onlar məğlub olmadılar, irəlilədilər, yəni Bəni-Ümeyyəyəni əbədilik məğlub etdilər. Seyyidüş-şühədanın öldürülməsi o deməkdir ki, Bəni-Ümeyyəyənin nümayiş etdirmək istədiyi islam - xilafət iddiasında olmaqla insanlıq prinsiplərinin xilafına əmək etməsi - canlandı və o fasid rejim məğlubiyyətə uğratdı.

***

Allah övliyaları da məğlub oldular. Həzrəti Əmir Müaviyə ilə müharibədə[1] məğlub oldu. Söz bunda deyil, İmam Hüseyn (ə) Yezidə döyüşdə məğlub oldu və öldü, əslində isə onlar qalib gəldilər. Onlar zahirdə məğlub oldu, əslində isə qalib gəldilər.

***

İslamı, indiyə kimi, bizim burada əyləşdiyimiz zamana kimi Seyidüş-şühada diri saxlamışdır.

---

[1] İmamın məqsədi Süffeyin döyüşüdür. Əmirəl-möminin (ə) xəlifəliyə çatdıqdan sonra ikinci xəlifə dövründən Şama vali olan Müaviyəni vəzifəsindən azad etdi. Müaviyə Həzrətin fərmanına boyun əymədi və Osmanın qanını almaq bəhanəsi ilə başına adam yığıb Kufəyə doğru hərəkət etdi. Onlar Fərat çayının kənarında Süffeyn adlı bir yerdə imamla qarşılaşdılar. Bu müharibədə iki tərəf 90 dəfə döyüşə girdilər. Müaviyə məğlubiyyətə uğrayacağını duyduqda Əmr ibn Asın məsləhəti ilə döyüşçülərinə əmr etdi ki, Quranı süngüyə taxıb, müharibədən əl çəkməyə və hakəmiyyəti qəbul etməyə çağırsınlar. Əmr ibn Asın hiyləsi öz təsirini buraxdı.

Həzrətin ordusu arasında təfriqə törəndi. Nəhayət o Həzrəti hakəmiyyəti qəbul etməyə vadar etdilər. Bu müharibədə 36-cı hicri ilin səfər ayında başlandı və 110 gün davam etdi. Müharibədə ölənlərin sayı 70000 nəfər idi. Onun 45000 nəfəri Müaviyə qoşunundan idi.

***

İslamı, o qədər əzizdir ki, Peyğəmbər övladı canlarını ona fəda etdilər. Həzrət Seyyidüş-şühəda (ə) ətrafdakı gəncləri və səhabələri ilə islam uğrunda döyüşdülər, canlarını verib islamı bərpa etdilər.

***

Seyidüş-şühada (ə)-ın dövrün taqut hökümətinə qarşı mübarizəsi və şəhid olması islama ziyan vurmadı, onu inkişaf etdirdi. Onun şəhadəti olmasaydı Müaviyyə və oğlu, Peyğəmbərin xəlifəsi adı ilə, məscidən getmək, imam-cümə olub namazı qılmaq, peşnamaz olub camaata namazı qılmaqla islamı başqa cür göstərəcəkdilər. Amma Peyğəmbər xəlifəsi, forma baxımından islam höküməti, məzmuna gəldikdə isə bunlarla zidd idi. Məzmun baxımından nə hökmət islamı hökuməti idi nə hakim islam hakimi idi. Seyidüş-şühada (ə) bunların islamı cəhiliyyət dövrünə qaytarmaq və bunu göstərmək ki, güya islam da qabaqkının bir variantıdır - deyə oynadıqları rolu ifşa etdi.

***

Həzrət Seyyidüş-şühəda (ə) şəhid olması məktəbi diriltdi. Özü şəhid oldu və islam məktəbi dirildi. Müaviyə və oğlunun tağut rejimin batırdı. Seyidüş-şühadanın şəhid olması islamın ziyanına çox xeyrinə oldu, islamı diriltdi.

***

Əgər Seyidüş-şühada olmasaydı, biz isə İmam Hüseyn yox tağuta boyun əysəydik həmin tağut rejimi cahilliyyət dövrünü bərpa edəcəkdi. İmam Hüseyn islama nicat verdi.

***

Həzrət Seyyidüş-şühəda (ə) da məğlub oldu, lakin son qələbəni əldə etdi. Özlərini ölməklə məktəbləri məğlub olmadı. Düşməni geri qaytardılar. İslamı imperiya şəklində salmaq və cahiliyyət dövrünü

qaytarmaq istəyən Müaviyyəni məğlub etdilər. Yezid və onun tabeləri əbədilik basdırıldılar. İnsanların və Allahın əbədilik lənəti onlara olsun.

***

Seyidüş-şühada (ə) məzhəbi sığorta elədi. Öz əməli ilə islamı sığorta elədi.

***

Rəvayətə görə Peyğəmbərin «Ənə min Hüseyn» mən Hüseyndənəm[1] deməyi bu mənadadır ki, Hüseyn mənimdir, mən də ondan dirilirəm. Onun şəhid olmasında bu qədər bərəkət vardır. Baxmayaraq ki, düşmən onların izlərini məhv etmək isdəyirdi, düşmən əslində Bəni-Haşimi aradan qaldırmaq isdəyirdi. Onların sözü «Ləibət Haşimü bilmülki...»[2] idi.

***

Həzrəti Seyyidüş-şuhəda (ə)-ın Məkkəyə gəlməsi və bildiyimiz vəziyyətdə oradan cıxması[3] böyük bir siyasi hərəkət idi, cünki hamı Məkkəyə gedən çağda o, Məkkədən çıxırdı. Bu bir siyasi hərəkət idi. Bütün hərəkətləri siyasi idi, islami-siyasi. Həmin islami-siyasi hərəkət Bəni-Üməyyəni aradan apardı. Bu hərəkət olmasaydı islam korlanacağdı.

***

İmam Hüseyn (ə) övladını, qoyum-əqrəbasını və özunu fəda etdi və onun şəhadətindən sonra islam gucləndi.

---

[1] Rəvayətə görə Peyğənbər (s) deyirdi:
«Hüseyn məndədir, mən Hüseyndənəm, Allah Hüseyni sevəni sevər. O, sibtlərdən biridir».

[2] Bax, qabaq səhifələr.

[3] İmam Hüseyn (ə) Yezidə beyət etməkdən çəkindikdən sonra Mədinədən Məkkəyə yollandı. Dörd ay Məkkədə qaldıqdan sonra Kufə əhalisinin dəvətini və Yezid höküməti tərəfindən Məkkəyə hakim olan şəraiti nəzərə alaraq 60-ci il (hicri) zihəccə ayının səkkizində həcc mərasimi vaxtının yetisməsinə rəqmən Kufəyə yollandı. İmam Hüseyn Məkkədən cıxarkən müsəlmanlar dünyanın müxtəlif məntəqələrindən həcc mərasimini kecirmək üçün Məkkəyə gəlirdilər.

***

Seyyiduş-sühəda öldü lakin məğlub olmadı, Bəni-Üməyyəni elə sındırdı ki, axıra kimi bir iş görə bilmədilər. Bu qan o qılınçları elə geri əyləsdirdi ki, indiyə kimi də qələbə Seyyidüs-şühəda ilə məğlubiyyət isə Yezid və onun tabelərinindir.

***

Seyyidüş-sühəda haqlı idi, az bir sayla qiyam etdi, şəhid oldu, övladı da şəhid oldu, lakin islami diriltdi, Yezid və Bəni-Üməyyəni biabir etdi.

***

Seyyidüş-şühəda sahəbə və qohum-əqrabasından neçə nəfər ilə qiyam etdi. Bu qiyam Allah üçün olduğuna görə o xəbisin səltənətin əsasını sarsıtdılar. Zahirdə şəhid oldular, lakin səltənətin əsasını sarsıtdılar. İslamı tağut səltənəti şəklinə salmaq istəyən bir səltənətin əsasını sarsıtdı.

***

Allah yolunda çalışana məğlubiyyət yoxdur. Ölsək də məğlub olmayacağıq. Həzrəti Seyyidüş-şühəda da öldü, lakin (demək olarmı ki,) məğlub oldu? Onun bayrağı qaldırılmışdır, lakin Yeziddən bir xəbər yoxdur.

***

Seyyidüş-şühəda (ə) qiyamı olmasaydı biz bu gün qələbə çala bilməyəcəkdik.

## AŞURA QİYAMI AZADƏLƏRİN YOLUDUR

(Hər gün Aşura və hər yer Kərbəladır)

Həzrəti Seyyidüş-şühəda hamıya öyrətdi ki, zülm qarşısında və qəddar hökumət qarşısında nə etsin. Əvvəldən bilirdi ki, getdiyi yolda öz səhabələrini və ailəsini fəda etməli, islamın əzizlərini islama qurban verməlidir, lakin bu işin nəticəsini də bilirdi... O, həm də tarix boyu yolun nə olduğunu hamıya öyrətdi. Sayın azdığından qorxmayın, say təyinedici deyil, sayının keyfiyyəti, cihadın keyfiyyəti təyinedicidir. Say yox ola bilər, lakin keyfiyyətcə naqis ya boş. Həm də say az ola bilər, lakin keyfiyyətcə qüdrətli və başı uca.

***

Müsəlmanların imamı bizə öyrətdi ki, əgər dövrün zalımı müsəlmanlara [bizə] hökümət etsə qüvvələriniz az olsa da ona qarşı qiyam edin, onu inkar edin. İslam ideyasını təhlükədə görsəniz fədakarlıq edin, qan verin.

***

Həzrəti Seyyidüş-şühəda öz əməli ilə döyüş meydanında və arxa cəbhədə necə davranmalı olacağımızı bizə öyrətdi. [Yəni] silahli mübarizə qabiliyyətinə malik olanlar necə mübarizə aparmalıdırlar və arxa cəbhədə olanlar necə təbliq etməlidirlər. [O, bizə] mübarizənin keyfiyyətini, az bir sayın yox bir saya qarşı necə mübizə aparmasına, bütün qüdrət mənbələri əlində olan qəddar bir hökümətə qarşı az bir sayın necə mübarizə aparmalı olduğunu öyrətdi. Bunlar Həzrəti Seyyidüş-şühədanın bizə verdiyi təlimləridir. Onun hörmətli Əhli-beyti və əziz övladı da bunu öyrətdi ki, elə bir müsibətdən sonra nə edilməlidir? Təslim olmaq lazımdırmı? Yoxsa cənab Zeynəb (s.ə)-nın kimi elə bir böyük müsibətdən [ki, bütün müsibətlər onun yanında kiçikdir] sonra küfr və ilhada qarşı durub, yəni gəldimi məsələni aydınlaşdırmalıyıq və ya Əli ibn Hüseyn (ə) kimi xəstəliyə baxmayaraq yeri gəldimi təbliğ etməliyik?

***

Səyyidüş-şühəda, onun səhabələri və Əhli-beyti bu vəzifənin nə olduğunu öyrətmişlər: Döyüş meydanında fədakarlıq göstərmək, meydandan kənarlarda isə təbliğat aparmaq. Həzrətin döyüş meydanında göstərdiyi fədakarlıq qədər ya ona yaxın miqdarda Həzrəti Səccadın və cənab Zeynəbin çıxışları Hüseyn (ə) hərəkatını yaymaqda və davam etdirməkdə təsir etmişdir və Allah-Təala yanında dəyərə malikdir. Onlar bizə öyrətdilər ki, zülmkarın və zülmkarlar hökumətin qarşısında qadınlar və kişilər qorxmamalıdırlar. Cənab Zeynəb (s.ə) Yezidin qarşısında dayanıb, onu elə təhqir etdi ki, Bəni-Üməyyə ömründə bu kimi təhqiramiz sözlər eşitməmişdi. Kufəyə və Şama gedərkən onların yolboyu çıxışları, Həzrəti Səccadın mənbərdəki çıxışı macərasının və olduğunu aydınlaşdırdı, məlum oldu ki, macəra batilin haqqa qarşı durması deyil, yəni «bizi əksinə təqdim etmişlə». Əslində yezidçilər guya «Seyyidüş-şühadə, hökumətin və Peyğəmbər xəlifəsinin qarşısında dayanan bir adamdır» - deyə təqdim etmək isdəyirdilər. Həzrəti Səccad isə bu mövzunu camaatın qarşısında ifşa etdi, cənab Zeynəb də elə elədi. Bu gün bizim ölkəmiz də belə bir vəziyyətdir. Artıq Həzrəti Seyyidüş-şühəda bizlərin vəzifəsini müəyyənləşdirmişdir: Döyüş meydanına sayının azlığından qorxmayın. İnsanın məqsəd və ideyası böyük olduğu daha çox əzab-əziyyətə qatlaşmalı olur.

***

İmam Hüseyn az bir sayla hər şeyini islama fəda etdi, böyük bir imperiyanın qarşısında dayanıb «yox», dedi.

***

Həzrəti Seyyidüş-şühədanın şəhadəti insanlığa deyə biləcək bütün ziyanlardan böyük idi. Lakin o, nə etdiyini, hara getdiyini və hansı məqsədi güddüyünü bildiyi üçün fədakarlıq etdi və şəhid oldu. Biz isə bu fədakalıqları nəzərə almışdır ki, Seyyidüş-şühəda nə iş gördü və o böyüklərdə bir zülm təşkilatını dağıtdı, biz nə iş görmüşük.

***

Seyyidüş-şühəda (ə) belə bir zalım hakimin xalqa müsəllət olduğunu gördükdə aydınlaşdırır ki, hər kim zalım hakimin hökümət etdiyini və xalqa zülm etdiyini şahidi olsa az bir saylar, neçə nəfər ilə də olsa onun qarşısında dayanmalıdır. Bizim qanımız Seyyidüş-şühədanın qanından qırmızıdırmı ki, qan verməkdən qorxaq? O da müsəllman deyən zalım bir şahı aradan aparmaqda? Yezidin müsəllmanlığı da şahın müsəllmanlığı kimi idi, yaxşı olmasaydı da pis deyildi. Millətlə bunun kimi davranırdı. Zalım şəxs idi. Seyyidüş-şühəda, canını da versə belə bir zalım sultanın qarşısında dayanmağı lazım gördü.

***

Bu bir əmrdir, İmam Hüseyn (ə)-ın əməlinin (meyar götürülməsi) bir əmrdir. «Külli yovmin Aşura və külli ərzin Kərbəla» fərmanı hamı üçündür. Əmr olunmuşdur ki, hər gün və hər yerdə bu hərəkat davam etməlidir. İmam Hüseyn az bir sayla hər şeyin islama fəda etdi və böyük bir imperiyanın qarşısında dayanaraq «hər gün və hər yerdə bu proqrama əməl olunmalıdır», dedi.

***

«Külli yovmin Aşura və külli ərzin Kərbəla» sözü çox böyük bir sözdür ki, onu səhv başa düşürlər. (Bu sözdən) belə başa düşürlər ki, güya hər gün ağlamaq lazımdır. (Əslində) bu sözün məzmunu başqadır: Kərbəla nə etdi? Kərbəla çölü Aşura günü nə rolu oynadı? Bütün yerlər bu cür olmalıdır. Kərbəlanın rolu bu idi ki, (Seyyidüş-şühəda (ə) neçə nəfərlə döyüş etdi. Az bir sayla Kərbəlaya gəlib Yezid zülümü qarşısıda, qəddar dövlət qarşısında, dövrün imperiyası qarşısında dayandılar, fədakarlıq edib öldülər, lakin zülmə boyun əymədilər və Yezidi məğlubiyyətə uğratdılar). Hər yer bucür olmalıdır, hər gün bu cür olmamalıdır. Millətimiz hər gün bunu nəzərə almalıdırlar ki, bu gün Aşura günüdür, biz isə zülümün qarşısında dayanmalıyıq, hər yer Kərbəladır və Kərbəla proqramını həyata keçirməliyik. (Kərbəla müəyyən bir yerə, müəyyən bir adamlara aid deyildir. Kərbəla macərası yetmiş neçə nəfərlik bir cəmiyyətdə və müəyyən Kərbəla çölünə aid deyildi.

Bütün yerlər və bütün günlər bu rolu oynamalıdır. Millətlər unutmamalıdırlar ki, həmişə zülm qarşısında dayanmalıdırlar.)

***

...Narahat və nigəran olmayın, iztiraba qatılmayın, qorxunu özünüzdən uzaqlaşdırın. Siz elə rəhbərlərə tabesiniz ki, bu gün şahid olduğumuz müsibətlərdən çox-çox böyük müsibət və faciələlər qarşısında səbr edib, müqavimət göstərdilər. Bizim böyük rəhbərlərimiz Aşura günü və Məhərrəm gecəsi kimi hadisələrə dözdülər və Allah dininin yolunda elə müsibətlərə səbr etdilər. Bu gün siz nə danışırsız? Nədən qorxursunuz? Nəyə görə iztirab keçirirsiniz? Həzrəti Əmir və İmam Hüseyn tabeçiliyini iddia edib, hakimiyyət aparatının biabır əməlləri qarşısında özünü itirmələri eybdir.

***

Şah və əcnəbi zülümü qarşısında Hüseynin müqədəs hərakatını rəhbər tutaraq 12 məhərəm və 15 Xordad hərakatı elə qurucu və elə tadalayacı idi ki, cəmiyyətdə fədakar və mücahid kişilər yetirdi, onlar isə öz hərəkət və fədakarlıqları ilə zalımların və xainlərin gününü göy əskiyə döndülər və bu böyük milləti elə ayıldıb sıxlaşdırdılar ki, yadların və əcnəbipərəstlərin gözünə yuxu gəlməyə qoymadılar. Elmiyyə hövzələrini, universitet və bazarları ədalət, islam və məzhəbi müdafiə edən sarsılmaz qalaya çevirdilər.

***

Bu gün məsələ çox əhəmiyyətliddir, elə ki, can verməliyik. Elə ki Seyyidüş-şühəda (ə) canını verdi, elə ki, İslam peyğəmbəri iyirmi üç il zəhmət çəkdi, elə ki, Həzrət Əmir (ə) onun üçün Müaviyə ilə 18 ay döyüş etdi. Bir halda ki, Müaviyyə islam iddiasında idi bəs onunla döyüşmək nəyə gərək idi? Buna görə ki, o zalım bir sultan idi, buna görə ki, yıxılmağı vacib olan aparat idi. Niyə öz səhabələrindən ölümə verdi və onlardan öldürdü. Çünki haqqı və ədaləti bərpa etmək istəyirdi.

***

Biz ki, Seyyidüş-şühədadan artıq deyilik. O, öz vəzifəsini yerinə yetirdi və öldü.

***

1357-ci il 17 şəhrivər[1] və eləcə də ümmətin başına gələn böyük günlərin acı xatirəsi mütləqiyyət və istikbar saraylarının devrilməsi və islam ədaləti respublikasının bayrağının yüksəlməsi kimi şirin meyvə yetirdi. Elə deyildimi ki, «hər gün Aşura, hər yer Kərbəladır» təlimi islam ümmətinə örnək olmalıdır? Hər gün və hər Aşura yurdunda qaldırılan kütləvi qiyam saray zalımlarına və çapovulçu müstəkbirlərə qarşı oldu. Hökm belədir ki, bu proqram hər gün və hər yerdə ümmət həyatının başlıca plan olsun. Bizim yaşadığımız günlər Aşuranın təkrarı idi və islam övladının qanı tökülən meydanlar, xiyabanlar, küçələr və tənkələrin hər biri bir Kərbəla idi. Bu təlimverici hökm həm vəzifə həm də müjdədir. Ona görə vəzifədir ki, müstəzəflər az sayla olsa da cox saylı və silahla təchiz olunmuş, müstəkbirlərin qarşısında şəhidlər arası kimi qiyam etmək vəzifəsini daşıyırlar. Ona görə müjdədir ki, bizim şəhidlərimizi Kərbəla şəhidlərindən etmişdir və ona görə müjdədir ki, şəhid olmaq qələbənin rəmzidir. 17 Şəhrivər Aşuranın təkrarı, Şəhidlər meydanı Kərbəlanın təkrarı, bizim şəhidlərimiz Kərbəla şəhidləri sırasının davamı, millətimizin müxalifləri ilə Yezid və onun tabeləri sırasının davamıdır. Kərbəla zülm sarayını qanla sarsıtdı, bizim Kərbəlamız isə şeytanı şah sarayını yıxdı. İndi isə bu qanların və şəhidlərin varisi yəni biz sakit qalmamalı və onların fədakarlıqlarını nəticəyə çatdırmalıyıq. Sarsılmaz iradə və möhkəm yumruqla zülümkar üsul-iradə qalıqlarının, Şərq və Qərbə bağli hiylələri fəzilət şəhidlərin ayağı altında basdırmalıyıq.

---

[1] Sonralar «qara cümə» adı ilə məşhur olan 17 şəhrivər (8 sentyabr 1978-ci il) İranda islam inqilabının unudulmaz günlərindəndir. Həmin ayın on üçündə (4 sentyabr) Tehran əhalisi fitir namazını qıldıqdan sonra etiraz nümayişində də keçirildi. Həmin nümayiş iştirakçıları ertəsi gün (8 sentyabr) Tehranın Jalə meydanında nümayiş keçirməyə qərar aldılar. Camaat səhər tezdən meydana yollandılar. Nümayişçilərin sayı saat altıda 100 min nəfərə çatdı. Silahlı qüvvələr meydanı mühasirəyə almışdılar. Həmin saatda və gözlənilmədən radio Tehran və başqa 10 şəhərdə fövqaladə vəziyyət elan etdi. Silahlı qüvvələr dərhal nümayişçilərə atəş açdılar. Nəticədə 4000 nəfərdən çox adam şəhid oldu və neçə yüz nəfər yaralandı. Qeyd edək ki, rejim ölənlərin sayını 58 nəfər, yaralıların sayını isə 25 nəfər elan etmişdi.

***

Böyük millətimiz 1342-ci il 15 Xordada təsadüf edən o faciəli və partlayıcı hadisənin ildönümündə Aşuradan ilham alaraq elə bir qiyamı qaldırdı. Əgər Aşura və onun partlayıcı hərəkatı hərarəti olmasaydı təşkilat olmadan belə bir qiyam baş verəcəkdimi? Böyük Aşura hadisəsi 61-ci h.q. ilində 1361-ci Xordada kimi və bu aydan Bəqiyyətullahın (ərvahuna li məqdəmihil fəda) cahanşümul qiyamına kimi, hər zaman inqilab törədici olmuşdur.

***

İndinin özündə də cəbhə verilişlərində görürsünüz ki, hamı İmam Hüseyn eşqi ilə cəbhələrə hərarət verirlər.

***

Artıq millətimiz dərk etmişdir ki, «hər gün Aşuradır və hər yer Kərbəladır». Onların məclisləri və duaları Seyyidüş-şühəda (ə) sahabələrinin Aşura gecələrini xatırladır.

***

İmam Hüseyn (ə) öz qanı ilə islamı diriltmişdir və siz onu izləməklə islam və inqilabı qoruyun.

***

Biz eyni-halda ki, çox laiq gənclirimizi və işgüzar kişilərimizi əldən vermişik, lakin əldə etdiyimiz bunlardan çox çox üstündür. Elə bir şey əldə etmişik ki, ona görə Seyyidüş-şühəda (ə) arvad-uşağı fəda etdi və Peyğəmbər (s) öz həyatını ona həsr etdi və və məsum imamlarımız bu yolda çox əzab əziyyət çəkdilər.

# İKİNCİ FƏSİL

## YAS VƏ RÖVZƏNİN HİKMƏTİ

Hamı bilsin İmamlar (ə) əmr etmişlər ki, islamın bu tarixi həmasəni əzizləmək və Əhli-beytə zülm edənlərə lənət etmək millətlərin tarix boyu zalımlara qarşı igidcəsinə çıxışlarıdır. Həm də bildiyimiz kimi artıq Bəni-Üməyyənin aradan gedib cəhənnəmə vasil olmasına baxmayaraq onlara lənət etmək və nifrət bəsləmək dünya zalımlarına qarşı o çıxış etmək və bu zülm sındıran çıxışı diri saxlamaq deməkdir.

***

Şəhidə ağlamaq onun hərəkatın diri saxlamaq, (davam etdirmək) deməkdir. Rəvayətdə «hər kim ağlasa, ağlatsa ya ağlamsında mükafatı cənnətdir», deyilməsi ona görədir ki, hətta simasını kədərləndirən, özünü qəmli göstərən, və ağlamsınan bu hərəkatı, İmam Hüseyn (ə) hərəkatını davam etdirir.

***

Biz əbədilik olaraq Seyyidüş-şühədaya ağlasaq da ona yox bizə xeyri vardır. Hələ axirət savabı qalsın bu dünyadakı xeyrini hesablayın. Ruhiyyədə buraxdığı təsiri, qəlbləri bir-birinə bağladığını hesablayın.

***

Elə güman etməyin ki, bu ağlamaqlar, əza və matəm məclislər məhz Seyyidüş-şühədaya ağlamaq üçündür. Yox, nə Seyyidüş-şühədanın ağlamağa ehtiyacı var nə də ağlamaq öz özlüyündə bir iş görər. Lakin bu yığıncaqlar camaatı birləşdirir, onlara istiqamət verir. Məhərrəm ayı və xüsusilə Aşura on günlüyü otuz, otuz beş milyon əhalini birləşdirir, vahid istiqamətə yönəldir. Boş yerə deyildir ki, imamlarımızdan bəziləri «mənə rovzə oxutdurun» - deyə əmr edirlər. Boş yerə deyildir ki, imamlarımız, hər kim ağlasa, ağlatsa yaxud ağlamsınsa filan qədər savabı var» demişlər. Mövzu ağlamaq ya ağlatmaq deyil, siyasidir. İlahi görüş sahibi

olan imamlarımız səfərbər etmək, birləşdirmək, amanda qalmaq, (sarsılmamaq) üçün müxtəlif yollarla birləşdirmək istəyirdilər.

***

İmamlarımızdan bəzisi (bəlkə də İmam Baqir olsun, yaxşı yadımda deyil) «bir nəfər Minada mənə növhə desin, ağlasın, yas saxlasın»[1] deyə buyurursa, Həzrəti Baqirin bu işə ehtiyacından və ona şəxsi fayda verəcəyindən irəli gəlmir. Bunun siyasi cəhəti vardır. Minada hər yerdən adamların oraya axıb gəldiyi vaxtda bir ya neçə nəfərin İmam Baqirə ağlaması, onun düşmənlərinin cinayətlərini, onu şəhid etmələrini zikr etməyi dalğalansın. Bu matəm yığıncaqlarını az bilməyin.

***

Həzrəti Baqir (ə) vəfat edəndə vəsiyyət etmişdi ki, on il Minada ona ağlamaq üçün bir ay neçə nəfəri əcir etsinlər. Bu necə mübarizədir? Həzrəti Baqir ağlamağa möhtac idimi? On il orada ağlamaq insanın əsas siyasi, pisixi incəliyidir. Çünki camaat, nə xəbərdir, - deyə soruşur. (Cavabında) deyirlər ki, macəra belə imiş. Bu iş xalqın diqqətini məktəbə (islam ideologiyasına) yönəldir. Zülmkarı məhv edir, məzlumu isə gücləndirir. Biz (bu yolda) cavanlarımızı vermişik, Kərbəla gəncləri vermişik, biz (bu məktəbi) qorumalıyıq. Belə olmaz ki, güman etməyin məhz ağlamaqdır yox, məhz ağlamaq deyil, siyasi psixi və sosial məsələdir. Əgər məsələ təbakidirsə bəs ağlatmaq nədir? Ağlatmaq da bir şeydirmi? Həzrəti Seyyidüş-şühədanı təbakiyə ehtiyacı varmı? İmamlarımızın, yığıncağınız olsun, ağlayın, nə bilim mələyin, - deyə bu məsələyə təkid etmələri ona görədir ki, bu din ideyalarımızı qoruyub saxlayın.

---

[1] «Cilaül-üyun» Muhəmmədbaqir məclisi, səh. 892. Siqətül-islam Küleyni sənədlə nəql etmişdir ki, Həzrəti İmam Muhəmməd Baqir (ə) vəsiyyətində özünə matəm saxlamaq üçün 800 dirhəm vəsati ayırmışdı.

Həm də etibarlı sənədlə İmam Cəfər Sadiq (ə)-dan nəql etmişdir ki: «Atam dedi: Ey Cəfər mənim əmvalımdan vəqf et ki, on il həcc vaxtı Minada mənə ağlasınlar, matəm ənənəsini bərpa etsinlər, və mənim məzlumluğuma ağlasınlar».

***

Əza məclislərinin nə qədər dəyərli olduğu az məlum olmuşdur, bəlkə də bəzilərinə əsla məlum olmamışdır. Rəvayətlərimizə görə Kərbəla məzlumunun mətamində bir damla yaş tökməyin çox dəyərli olduğu, hətta təbakinin (ağlamsınmağın) belə dəyərli[1] olduğu məzlumlar ağası ağlamağa möhtacdı, demək deyildir. Məhz sizin və müsəlmanların savab aparması üçün də deyil, hərçənd savabı da vardır. Lakin məsələ burasındadır ki, niyə əza məclislərinin bu qədər böyük savabı vardır? Niyə Allah-Təala göz yaşına, hətta bir damla göz yaşına və hətta ağlamsınmağa bu qədər savab verir? Bu mövzunun siyasi cəhəti tədriclə aydınlaşır, sonralar inşəallah daha da aydınlaşacaqdır. Əza saxlamağa, əza məclislərinə, və növhə deməyə bu qədər savab verilməkdə ruhani və ibadət cəhətindən əlavə mühüm bir siyasi cəhət də vardır. Bu rəvayətlər o zaman deyilmişdir ki, bu fiqəyi naciyə Əməvilər və daha çox Abbasilər hakimiyyətinin giriftarı imişlər. Az bir say kiçik bir azlıq böyük qüdrətlərin kiriftarı imişlər. O vaxt həmin azlığın siyasi fəaliyyətini formalaşdırmaq üçün bir yol tapdılar. Bu yolun özü formalaşdırıcıdır. Bu da həmin məclislərin nə qədər əzələtli olduğunu və bu ağlamaqların nə qədər əhəmiyyətli olduğunu vəhy qaynaqlarından nəql etməkdir. Şiələr azlıqda olduğu bir dövrdə ağlamağı və əza məclisləri keçirməyi ardıcıllıqla davam etdirdilər və bəlkə də məsələnin nə olduğunu bilmirdilər. Lakin məsələ azlıq təşkil edən bir dəstəni yoxluq təşkil edən bir dəstə qarşısında mütəşəkkil etməkdir. Bu əza məclisləri tarix boyu ölkələrin hər yerində, islam ölkələrində, şiələrin və islamın beşiyi ola İranda bir növ təşkilatçılıq işi olub. İslamı məhv etmək və ruhaniliyi oradan qaldırmaq istəyən hökümətləri qorxuya salan həmin əza məclisləri, həmin dəstələr olubdur.

***

Qoy qərbpərətlər bizə ağlar millət desinlər, özümüzünkülər isə bir damla göz yaşının nə qədər savabı olduğunu bəlkə də qəbul etməsinlər. Bir əza məclisinin nə qədər savab olduğunu, dua haqqında deyilənləri, iki

[1] Rəvayətə görə İmam Hüseyn (ə) demişdir: «Bizə görə ağlayan hər bir bədəni Allah müəyyən müddət Behiştdə saxlar».

sətir dua oxumağın nə qədər savabı olduğunu beyinlərinə sığışdıra bilmırlar. Bu duaların, Allaha yönəlməyin, bütün xalqın bir nöqtəyə yönəlməyin siyasi cəhətini, bir milləti müəyyən islamı bir hədəf istiqamətində səfərbər etməyini dərk edə bilmir, beyinlərinə sığışdıra bilmirlər. Əza məclisləri məncə Seyyidüş-şühədaya ağlayıb savab aparmaq və başqalarına da axirət mükafatı yetirmək üçün deyil (hərçənd savabı da vardır). Onun əhəmiyyəti siyasi çəhətindədir ki, imamlarımız sədri-islamda planlaşdırmışlar. Bu plan həmişə qüvvədə olmalıdır. O da vahid bir bayraq, vahid bir ideya altında birləşməkdir. Həzrəti Seyyidüş-şühədanın əzasının bu işdə göstərdiyi təsiri başqa heç bir əməl əvəz edə bilməz.

***

Bəziləri məscidə gəlir, minbərə və orada deyilən sözlərə qulaq asır, rovzəyə yetişdimi durub gedirlər. Bu ona görədi ki, məsələlənin nə olduğunu (əsas mahiyyətini) başa düşmürlər. Həmin mehrabı və mənbəri saxllayann rozvədir. Rovzə olmasaydı bunlar da olmayacaqdı. Biz şəhidlərimizə ağlamağı, dad-haray salmalı və xalqı oyatmalıyıq. Əlbəttə xalqa başa salmalı olduğumuz bir mövzu da vardır. O da budur ki, bu işlərdən məqsəd məhz cavab aparmaq deyildir. Biz inkişaf etmək istəyirik. Seyyidüş-şühədanın da şəhid olması məhz savab aparmaq üçün deyildi. Savab aparmaq ona elə də məsələ deyildi. O, bu məktəbi qurtarmaq, islamı inkişaf etdirmək və diriltmək istəyirdi. Sizin də növhə deməyiniz, damışmağınız, moizə etməyiniz, camaatı ağlatmağınız və camaatın ağlaması islamı bu işlərlə saxlayıb (davam etdirmək) məqsədi güdməlidir. İndiyədək olduğu kimi məktəbimizi həmişə ağlamaq, nalə etmək, növhə deyib şeir oxumaqla saxlamaq istəyirik. Bu məsələ camaata xatırlandırmalıdır ki, mən deyim, sən ağla məsələsi yoxdur. Məsələ budur ki, məktəb ağlamaqla saxlanılmışdır. Təbakinin belə savabı vardır, niyə? Çünki təbaki bu məktəbə kömək edir.

***

Onlar (bizə ağlar millət deyənlər) doğrudan da məsələnin nə olduğunu, əza saxlamağın səbəbini, ağlamağın nə qədər dəyərli olduğunu və Allahın nə qədər mükafat verəcəyini bilsəydilər bizə ağlar millət deyil, qəhramanlar sahibi olan millət deyərdilər. Onlar bunu bilsəydilər ki, hər

şeyini Kərbəlada itirən və qüdrətli bir hökümət dövründə yaşayan Həzrəti Səccad (ə) qalan dualar nə işlər görüb və xalqı neçə də səfərbər edə bilir, onda bizə, dua nə üçündür, deməzdilər. Ziyalılarımız hamin məclislərin, dualarının məsiyələrin siyasi və sosial cəhətlərini «nə üçün bu işləri görürük?» deməzdilər.

***

«Haçanadək ağlamaq, haçanadək rövzə və s. gəlin nümayişə çıxaq» - deyə gənclərimizə aşılayanlar rovzənin nə olduğunu və hansı səbəbə görə indiyə kimi davam etdiyini başa düşmürlər. Onları başa salmaq da olmaz.

Bunlar rovzənin və ağlamağın qurucu olduğunu, insanı tərbiyə edib yetirdiyini bilmirlər. Rovzə məclisləri, Seyyidüş-şühədanın matəm məclisləri və zülmə qarşı aparılan təbliğdi. Bu iş tağuta qarşı təbliğdir. Məzluma olunan zülm bəyanıdır.

## İSLAM VƏ SEYYİDÜŞ-ŞÜHƏDA MƏKTƏBİNİN BƏRPASINDA ƏZADARLIĞIN ƏHƏMİYYƏTİ VƏ ROLU

Bunu hamımız bilməliyik ki, müsəlmanların birliyinə səbəb olan pak imamlara xüsusilə məzlumlar ağası və şəhidlər başçısı üçün keçirilən matəm mərasimi, bu siyasi mərasim olmuşdur. Bu iş müsalmanların xüsusilə on iki imam tabeyi olan şiələrin milli varlığını qoruyur.

***

İmamlarımız (ə) təkidlə tapşırmışlar ki, məzlumlar ağasının əzadarlığı əbədilik davam etməlidir və Rəsulullah (s) beytinin məzlumluğunu və Bəni-Üməyyə (l.ə)-nin aradan getdiklərinə baxmayaraq zülmkarlığını bəyan etmək məzlumun zalım başına bağırması kimidir. Həmişə lənət və həmin acıq davam etməlidir. Bu gün İranın Yezidçilərlə döyüşündə bu işin bərəkəti və nəticəsi aydıncasına duyulur.

***

Sədri-əvvəl macəracıları dinin əsasını sarsıtdıqları və az bir saydan başqa qalmadığı üçün Allah-Təala Əli ibn Hüseyn qaldırdı ki, əziyyət çəkib fədakarlıq göstərməklə milləti ayiltsın və ona yas saxlayanlara cox savab nəzərdə tutdu ki, camaatı ayıq saxlasın və beləliklə zülmün təməlini məhv etmək və xalqı tövhid və ədalətə sövq etdirmək ideyasını daşıyan Kərbəla macərasının unudulmasına imkan verməsinlər. Buna görə belə bir ideya daşıyan əzadarlığı çox savab nəzərdə tutulmuşdur ki, xalq heç bir ağır şəraitdə bu işdən əl çəkməsin. Belə olmasaydı Əli ibn Hüseynin çəkdiyi zəhmətləri sürətlə korlayacaqdılar və bununla da Peyğəmbərin islam və şiəlik prinsiplərini yaratmaq üçün çəkdiyi zəhmətlər korlanacağdı. Tutaq ki, Allahın verdiyi savab əməldən irəli gələn mənafeyin qarşılığıdır. Bu əməldən əldə edilən mənafə dünya və axirət səadətinə səbəb olan haqq dinin və şiə prinsiplərinin davam etməsidir. Əgər şiənin o dövrdəki vəziyyətini və Əli ibn Əbitalib müxaliflərini yürütdüyü sıxıntıları nəzərə alsaq bu əməlin qiyməti zehnimizə sığıyacaq dərəcədən artıqdır. Allah-Təala bu əmələ elə savablar və elə mükafatlar nəzərdə tutmuşdur ki, heç bir göz görməyib və heç bir qulaq eşitməyib. Bu da tam ədalətdir.

***

İslam millətlərinin qanını qaynadan Seyyidüş-şühədanın qanıdır. Həmin Aşura dəstələri xalqı həyəcanlandırır və islamı və islam ideyalarını qorumaq üçün hazırlayır. Bu işdə səhlənkarlıq etməməliyik.

***

Haqq qalibdir, haqq qalibdir, biz isə onun rəmzini tapmalıyıq. Qələbəmizin, şiənin tarix boyu, Əmirəl-möminin (ə) dövründən, şiələrin az bir say olduğu dövrdən indiyə kimi davam etməsinin rəmzi nədir? İndi, Allaha şükür şiənin sayı çoxdur, o zaman azmış. Biz islam ölkələrinin və şiə ölkələrinin və ümümiyyətlə məzhəbin qalmasının rəmzini tapıb, onu qorumalıyıq. Rəmzlərdən biri və ən əsası Seyyidüş-şühədanın sərguzəştidir... Bu rəmzi qoruyub saxlamalıyıq. Tarix boyu və imamlarımızın əmri ilə keçirilən yığıncaqlardır. Cavanlarımızdan bəzisi güman etməsinlər ki, bu yığıncaqlar ağlamaq üçün imiş, indi isə artıq ağlamamalıyıq. Onların bu təsəvvürü səhvdir.

***

İndiyədək hər şeyi qoruyub saxlayan o (İmam Hüseyn (ə) olub. Peyğəmbərin də «mən Hüseyndənəm» deməyi bu mənadadır ki, dindarlığı o (Hüseyn) saxlamışdır, islam dinin onun fədakarlığı saxlamışdır, biz sizə onu saxlamalıyıq. Bu cavanlar (əlbəttə onlardan bir dəstəsi) bilmirlər. Bu fikri əzadarlığı istəməyənlər onlar aşılamışdır. Bunlar rovzənin əsasını aradan aparmaq istəyirlər, çünki rovzə xalqı elə həyəcanlandırır ki, hər iş görməyə hazır olurlar. Xalq Seyyidüş-şühədanın gənclərinin doğradığını bildikdə özləri də asanlıqla cavanlarının verirlər. Bizim millətimiz şəhadətsevərlik hissi sayəsində qələbə çaldı. Bu da Kərbəlanın şəhadət arzusunda olan millətimizə inikas etdirdiyi rəmzdir. Millətimiz öz ağası Seyyidüş-şühədanın şəhadətini arzulayır. Bu cavanlar bilmirlər ki, bizi saxlayan bunlardır. Bunu başa düşənlər isə yanlış fikri aşılayaraq başqalarını aldadırlar.

***

Seyyidüş-şühəda rovzəsi Seyyidüş-şühəda məktəbini qorumaq üçündür. Rövzə oxumayın deyən şəxslər Seyyidüş-şühəda məktəbinin nə olduğunu əsla bilmirlər. Bu məktəbi həmin ağlamaqlar və rovzələr qoruduğunu bilmirlər. Min dörd yüz ildir ki, həmin mənbərlər, rovzələr, mərsiyələr və sinə vurmalar bizi qorumuşdur, islamı indiyə kimi saxlamışdır. Bu sayda cavanlar (onların sui-niyyəti yoxdur) ki, güman edirlər: Artıq biz gündəlik məsələlərdən danışmalıyıq (bilmirdilər ki,) Seyyidüş-şühədanın sərgüzəştindən danışmaq gündəlik mövzudur, əbədilik mövzudur. Əslində gündəlik mövzu və sözü Seyyidüş-şühəda bizə vermişdir. Həmin ağlamaq, məsiyə və nalələr sinə vurmalar və əza dəstələri Seyyidüş-şühədanın onun məktəbini qoruyub saxlamışdır. Əgər məhz müqəddəslik etmək olsaydı, evin bir otağında əyləşib Aşura ziyarəti oxumaq olsaydı indiyə heç nə qalmamışdır. Dad-fəryad lazımdır, hər məktəb üçün dad-fəryad lazımdır, sinə vurmaq lazımdır. Hər məktəb üçün ağlayan və sinəsinə vuran (qeydinə qalan, qayğısını çəkən) olmasa o məktəb qalmaz. Bunlar səhv edirlər, uşaqdırlar. İslamı saxlamaqda ruhaniyyətin və minbər əhlinin rolunu bilmirlər, bəlkə də siz özünüz də elə bilmirsiniz. Bu, islamı həmişə təravətli roldur. Sanki gülü suvarırlar. Həmin ağlamaqlar Seyyidüş-şühəda məktəbini diri və təravətli saxlamışdır. Həmin mərsiyələri Seyyidüş-şühəda məktəbini diri saxlamışdır. Biz verdiyimiz hər bir şəhid üçün bayraq qadırmalı, növhə deməli, ağlamalı və nalə etməliyik. Başqalarını bir nəfər itirdikdə bu işi görür, nalə edirlər. Tutaq ki, bir partiyanın bir üzvü olsun, mitinqlər keçirir, dad-haray salırlar. Bu da Seyyidüş-şühəda məktəbini bərpa etmək üçün bir növ mitinq və dad haraydır ki, bunlar bilmirlər, məsələyə diqqət yetirmirlər. Həmin ağalmaq və növhəxanlıq bu məktəbi indiyə kimi canlı saxlamışdır. Bizi diri saxlayan və hərəkatımızı aparan da elə bunlardır. Seyyidüş-şühəda olmasaydı bu hərəkat da olmayacaqdır. Seyyidüş-şühəda hər yerdə vardır. «Hər yer Kərbəladır», hər yer Seyyidüş-şühədanın məhzəridir, bütün mehrablar Seyyidüş-şühədanındır. ...İmam Hüseyn islamı qurtardı. Biz, islamın qurtarıcısı və onun yoluna ölən adam haqqında sakit qalmalıyıqmı? Biz bu məktəbi, bu hərəkatı qorumaq üçün hər gün ağlamalı və hər gün mənbərə getməliyik. Çünki bu hərəkat İmam Hüseyn (ə) minnətdardır.

***

Bundan daha çox və yaxşı həmahənglik varmı? Bir millətin bu qədər həmahəng olduğunu eşidibsinizmi? Bunları həmahəng edən kimdir? Bunları Seyyidüş-şühəda həmahəng etmişdir. Bütün islam ölkələrində müsəlman millətlər Aşura və Tasua ya məsələn səkkizinci və neçənci günlərdə (həmahəng olurlar), bu qədər məzmunlu və əzəmətli dəstələr. Kim belə bir toplantı və yığıncağı təşkil edə bilər? Dünyanın hansı nöqtəsində belə bir həmahəngliyin mövcud olduğunu eşidibsiniz? Hindistana getsəniz belədir, Pakistana getsəniz belədir, İndoneziyaya getsəniz belədir, İraqa getsəniz belədir, Əfqanıstana və hər yerə getsəniz belədir. Bu həmahəngliyi kim yaradıb? Bu həmahəngliyi itirməyin.

***

Həmin əza və matəm məclislərində məzlumların ağasına və Allahın razılığını əldə etmək üçün özünü, səhabələrini və övladnı fəda edən bir şəxsin məzlumluğunu bəyan etmək üçün deyilən növhələr və oxuyan mərsiyələr gəncləri elə yetirmişdir ki, döyüş cəbhələrinə gedib şəhid olmaq istəyir, şəhid olmaqla fəxr edirdilər, şəhid olmadıqda isə narahat olurlar. Elə analar yetirir ki, bir cavanı gedən analar «yenə bir-iki cavanımız vardır» deyirlər. Seyyidüş-şühədanın əza məclisləri, Kümeyl dua mərasimləri xalqı bu şəkildə yetirir. İslam bu əsası, belə qurmuşdur ki, həmin ideya və proqramla davam etsin.

***

İndi isə bir dəstə «yox, rövzə oxumayın» deyirlər. Bunlar rövzənin nə olduğunu bilmirlər. Bunlar yas saxlamağan mahiyyətini başa düşmürlər. Bunlar bilmirlər ki, bu hərəkatı (İran islamı inqilabı hərəkatını) İmam Hüseyn hərəkatı meydana gətirmişdir. Bu hərəkat o hərəkatın tabeyidir, onun bir saçağıdır. Onlar bilmirdilər ki, İmam Hüseyn matəmində ağlamaq az bir saynın böyük bir imperiya qarşısında dayanmaq ənənəsini diri saxlamaqdır. Bu, bir əmrdir. İmam Hüseyn (ə) əməlini davam etdirmək hamıya əmr olunmuşdur. «Külli yovmin Aşura və külli ərzin Kərbəla» sözü hər gün və hər yerdə həmin hərakatı davam etdirin, həmin planı həyata keçirin – deyə bir fərmandır. İmam Hüseyn az bir sayla hər

nəyi vardısa islam yolunda verdi. Böyük bir imperiya qarşısında dayanıb «yox» dedi. Hər gün və hər yerdə belə bir «yox» sözü deyilməlidir. Gördüyünüz həmin məclislər «yox» demək ənənəsini qoruyub saxlamaq üçündür. Bizim yeni yetmələrimiz və cavanlarımız güman etməsinlər ki, məsələ, millətin məsələsi ağlamaqdır. Bu fikri başqaları aşılamışlar. Onlar bu ağlamaqlardan qorxurlar, çünki bu ağlamaq məzluma ağlamaqdır, zülmkar qarşısında dad-haray salmaqdır. Bayıra çıxan matəm dəstələri zülmkarlara qarşı durur, ona qarşı qiyam edirlər.

***

Keçmişdə (Rzaxan Pəhləvi dövründə) rövzə yığıncaqlarını millətin əlindən almaq üçün «ağlar millət» adlı bir söz dəbdə idi. Bütün rövzə məclislərini o zaman yığışdırdılar (rövzəyə gedən bir şəxsin əli ilə[1]). Görəsən məsələ rövzə məclisinin özü idi yoxsa onlar bu məclisdən başqa bir məfhum anlayır və onu yığışdırmaq istəyirdilər? Onlar başa düşmüşdülər ki, bu əmmamədə onlara mane olan bir qabiliyyət vardır, əza məclislərində onların əməllərinə mane olan bir cəhət vardır. Həmin məclislər xalqı məhərrəm ayında ölkənin hər yerində hamını vahid bir mövzudan danışması həddində birləşdirir və otuz-otuz beş milyon əhali məhərrəm və (səfər) aylarında xüsusilə Aşura on günlüyündə vahid istiqamətə gedən əhalini həmin xətiblər və ruhanilər bir məsələ üçün səfərbər edə bilərlər. Həmin yığıncaqların bu cür siyasi bütün başqa cəhətlərindən üstündən.

***

Bunlar görürlər ki, bu məclislər, rövzə məclisləri hər dövrdə məzlumun müsibətlərini, zülmkarların cinayətlərini xatırladan məclislər [adamı] zülmkarlara qarşı qoyur. Bunlar bu ölkəyə, islama xidmət etmiş

---

[1] Məliküş-şühəda Bəhar yazır: «Aşura günü idi. Rzaxanın (şah olmazdan əvvəl) komandanlığı altında olan qazax dəstələri xüsusi bir nizam-intizamla bazara gəlmişdi. Musiqi dəstələri matəm havası çalır, atları çəkirdilər. Sərdari-Süpəhin (Rzaxan) özü də qarşıda başıaçıq hərəkət edir və öz başına saman səpirdi... Məhərrəmin on birinci gecəsi də kazak dəstələri bazara gəlib şami-qəriban mərasimi keçirdilər. Rzaxan özü başıaçıq, əlində şam Came və şeyx Əbdülhüseyn məscidlərinə girib məclisi bir dəfə dolandılar. Bu, Sərdari-Süpəhin din mərasimlərin son dərəcə əhəmiyyət verdiyini göstərirdi. Bu rəfat neçə il təkrar olundu. Nəhayət Rzaxan baş nazir olduqdan sonra tamamilə dəyişdi, rövzə oxumağı, sinə vurmağı yasaq etdi, sonralar isə tamamilə islamın başlıca düşməninə çevrildi. «Siyasi partiyaların qısa tarixi» cild 1, səh. 183-184.

olduqlarına varmırlar, bunu gənclərimiz bilmirlər. Belə böyüklərə uymayan, bunlar xaindirlər. Sizə «bunlar ağlar millətdir» - deyə təkrarən aşılamaq istəyirlər xəyanət edirlər. Onların başçıları və ağaları bu ağlamaqlardan qorxurlar. [Onların] qorxmasının dəlili də Rzaxanın bu kimi ənənələri yasaq etməyə məmur olmasıdır. Rzaxan getdikdən sonra Britaniya Dehli radiosundan elan etdi ki, bu adamı biz gətirmişdik, biz də apardıq, doğru da deyirdi, islamı tapdalamaq üçün gətirmişdilər. İslamı tapdalama yollarından biri də bu kimi məclisləri sizdən almaq idi. Gənclərimiz elə təsəvvür etməsinlər ki, məclisə gedib matəmdən söz getdikdə «yox bu sözü danışma» deməkləri ilə xidmət edirlər. Bu, səhvdir, [xəlib] belə sözləri danışmalıdır, olunan zülmləri deməlidir ki, xalq keçmişdə nə olduğunu öyrənsin. Bu sözlər hər gün deyilməlidir. Bu iş siyasi xarakter daşıyır, sosial xarakter daşıyır.

***

Məni birinci dəfə yaxalayıb Qumdan aparanda mənimlə maşında olan bəzi məmurlar yolda mənə deyirdilər: «Biz səni tutmağa gələndə qorxurduq ki, Qumda olan xeymələr bilsinlər və biz isə vəzivəmizi yerinə yetirə bilməyək». Bu məmurlar bir şey deyil, böyük qüdrətlər belə bir təşkilatdan qorxurlar, çünki vahid bir amil olmadan onlar mütəşəkkil olurlar. Böyük bir ölkənin hər yerində millət öz-özünə qaynayır, Aşura günlərində mübarək məhərrəm və səfər aylarında həmin məclislər xalqı bir yerə toplayır. Böyük qüdrətlər öz məntəqələrində bir yığıncaq yaratmaq istədikdə necə gün ya necə on gün fəaliyyət göstərirlər. Bir şəhərdə çox zəhmət çəkib xərc tökdükdən sonra tutaq ki, yüz-yüz əlli min nəfəri bir yerə yığa bilirlər ki, bir natiqin sözünü dinləsinlər. Lakin göründüyü kimi xalqı bir-birilə qovuşduran əza məclislərinin sayəsində bir məsələ yaranmaq həmən təkcə bir şəhərdə deyil, ölkənin bütövlüyündə əhalinin bütün təbəqələri, Hərzəti Seyyidüş-şühəda əzadarları toplaşırlar. Bunun üçün də zəhmət çəkməyə və təbliğat aparmağa ehtiyac görünmür. Bir sözlə, Seyyidüş-şühəda (ə) ağzından çıxan bir sözlə hamı toplaşır.

## ƏZADARLIĞIN MİLLƏT VƏ ÖLKƏNİ QORUMAQDA ROLU

Aşuranı canlı saxlayın ki, onun sayəsində vətənizə ziyan dəyməyəcəkdir.

***

Qələbəmizin əsas səbəbi olan söz bildiyi həmin əza, matəm, təbliğ yığıncaqlardan və islamı yaymaq əməlindən irəli gəlir. Məzmunların ağası millətimizə elə bir vəsiəl yaratmışdır ki, xalq zəhmət çəkmədən, (xərc tökmədən) birləşir.

***

Millətimizin Kərbəla məcarasını rəhbər tutaraq həmahəng olmasını dünyada ən böyük siyasi və psixi hadisədir. Bütün qəlblər birləşir. Yaxşı istifadə edə bilsək həmin həmahənglik sayəsində qalib gələcəyik. (Ona görə) bunun qədrini bilməliyik. Cavanlarımız isə bu məsələlərə diqqət yetirməlidirlər.

***

Məscidlər, rovzələr, həftəlik rovzələr və bütün bunlar xalqın diqqətini (bir nöqtəyə) yönəldərək bu cür həmahənglik yaradır. Başqa dövlətlərə belə bir həmahənglik yaratmaq mümkün deyildir, neçə yüz miliyard tümən vəsaitlə də mümkün olmaz. Seyyidüş-Şühəda bizi belə həmahəng etmişdir. Seyyidüş-Şühəda bizi bu cür həmahəng etdiyi üçün təəssüf etməyək. Ağlamayaqmı? Həmin ağlamaqlar bizi saxlamışdır. Cavanlarımız bu vəsiləni əlimizdən almaq istəyən şeytanlara aldanmasıdır. Bizləri və ölkəmizi qoruyub saxlayan həmin (ənənələr)-dir.

***

Haqq qalibdir. Haqq qalibdir, lakin biz qələbəmizin rəmzini və şiələrin tarix boyu, Əmirəl-möminin (ə) dövründən indiyə kimi qalmalarının rəmzini tapmalıyıq...

Rəmzlərin ən başlıcası Seyyidüş-Şühədanın sərguzəştidir... Biz ölkəmizin müstəqil və azad olmasını istəsək bu rəmzi qoruyub saxlamalıyıq.

Cavanlarımızdan bəzisi güman etməsinlər ki, tarix boyu və imamlarımızın əmri ilə keçirilən bu yığıncaqlar ağlamamalıyıq. Bu təsəvvür səhvdir.

***

Biz elə bir səviyyədə çatmışıq ki, millətimiz birdən inqilab etdi, bu millətdə misli heç yerdə gözlənilməyən partlayış baş verdi. Bu millət bütün cəhətlərdə yadlardan asılı idi keçmiş rejim hər şeyini itirmişdi. Ölkənin bütün insanlıq şərəfini itirərək bizi hər sahədə yadlardan asılı etmişdi. Belə bir millətdə gözlənilmədən bir partlayış baş verdi. Partlayışın amili həmin məclislərdir ki, bütün xalq kütlələrini birləşdirir və diqqətlərini bir nöqtəyə yönəldirdi.

***

Bunlar milli şəxslərdirsə - buna baxmayaraq ki, Allah tərəfindəndirlər ya yox - əgər öz dediklərinə görə vətəni və milləti sevirlərsə rövzəni təbliğ etməlidirlər, çünki rövzə bu milləti saxlamışdır. Rövzə, mərsiyə və ağlamaq sizin ölkənizi amanda saxlamışdır.

***

Millimiz belə məclislərin qədrini bilməlidirlər. Həmin yığıncaqlar ki, Aşura günlərində daha çox keçirilir və başqa bu kimi mübarək günlər, həftələr və çıxışlar millətləri diri saxlayır. Bu yığıncaqların siyasi cəhətini başa düşsələr qərbpərstlərin özləri belə öz millət və vətənlərinin tərəfdarı olsalar əza məclisləri qurarlar. Mən ümid edirəm ki, bu məclislər daha çox və daha yaxşı keçiriləcəkdi.

***

Bizim millətimizi bu kimi məclislər qoruyub saxlamışdır. Rzaxan, Rzaxanın SAVAK [1] məmurları yas məclislərini boş yerə yasaq etməmişdilər, bu iş bihudə deyildir. Rzaxan boş yerə bu kimi işlərlə müxalif deyildi. Rzaxan mütəxəssislərin məmuru idi, mövzunun nə olduğunu başa düşənlərin məmuru idi. Millətin və şiələrin adət-ənənələrini öyrənən düşmənlərimiz bilirdilər ki, nə qədər bu məclislər var, nə qədər məzlumun mədhinə və zülmkarların ifşasına dair növhə və şeir söyləmək vardırsa onlar öz məqsədlərinə çata bilməyəcəklər. Rzaxan dövründə (bu işi) yasaq etdilər, İranda bütün yas məclisləri yasaq oldu. Öz işlərini gördülər, mənbər əhlinin əllərini bağladılar, ruhanilərin əllərini bağladılar, bunları təbliğ etməyə qoymadılar, özləri isə təbliğ etməyə başlayıb, bizi gerilədib bütün mənbərlərimizi taladılar. Məhəmmədrza dövründə də belə idi, lakin ayrı formada, qılınc gücünə yox, ayrı bir formada bu dastanı sıradan çıxarmaq istəyirdilər. İndi də həmin adamlar, lakin bu dəfə gənclərimizi oyuncaq edirlər. İndi də elədir, yas məclislərini yasaq edən Rzaxan dövründəki vəziyyətdir.

***

Belə güman etməyin ki, əza məclisləri, sinə və zəncir dəstələri olmasaydı da 15 Xordad hərəkatı baş verəcəkdi. Seyyidüş-şühədanın qanından başqa heç bir qüvvə 15 Xordad hərəkatını yarada bilməzdi. Həmin əza məclislərindən başqa qüvvə hər tərəfli hücuma məruz qalmış bir milləti böyük qüdrətlərin planlarını puça çıxarmağa qadir edə bilməzdi.

---

[1] SAVAK adı ilə məşhur olan təhlükəsizlik təşkilatı 1958-ci il Məhəmmədrza şahın fərmanı ilə rəsmən təsis olundu. Bu təşkilatın vəzifəsi müxalifləri tapdalamaq və islami mübarizlərlə qarşılaşmaq idi. SAVAK Amerikanın təhlükəsizlik təşkilatı SİA (MKİ) və İsrailin təhlükəsizlik təşkilatı Mossad ilə yaxın əlaqədə idi və onlarla əməkdaşlıq edirdi. Bu təşkilatın siyasi dustaqlara verdiyi işkəncə elə bir həddə idi ki, BMT əvf təşkilatı baş katibi 1974-ildə elan etdi ki: «Bəşər huququ sahəsində dünyada heç bir ölkənin İran ölkəsi kimi qara deyildir». İmam həzrətlərinin «Rzaxan SAVAK məmurları» dediyindən məqsədi Rzaxanın təhlükəsizlik məmurlarıdır.

***

Nümayişlərdə iştirak etmək əzadarlığı sizdən almasın. Əzadarlıq edərək nümayişdə iştirak edin, nümayiş dedikdə xəyal etməyin ki, biz əzadarlıq istəmirik. Biz islam və onun adət-ənənəsi və şəhidləri sayəsindən bir iş görə bilərik. Bizim topumuz və tankımız (hərbi avadanlıq və hərbi təchizatımız) Amerika və SSRİ top və tankına bərabər ola bilməz.

## AŞURA QİYAMINI QEYD ETMƏK İLAHİ ƏNƏNƏLƏRDƏNDİR

Ağlın cəhalətə, ədalətin zülmə, doğruluğun xəyanətə və islam hökumətinin tağut hökumətinə qarşı qələbəsini nümayiş etdirən məzlumlar ağası və azadələr başçısının xatirə məclisləri olduqca əzəmətli keçirilməli və məzlumların zalımlardan intiqam almasının əlaməti olaraq Aşuranın qanlı bayrağı daha yüksəlməlidir.

***

O cümlədən pak imamlarımızın xüsusilə məzlumların ağası və şəhidlərin başçısı Həzrəti Əba Əbdillah Hüseyn (Allahın peyğəmbərin, mələklərin və saleh insanların səlavatı onlara olsun) yas mərasimləri heç vaxt unudulmayacaq.

***

Əzadarlıq məclislərini qabaqkı əzəmətlə bərpa edin.

***

Məclisləri, əzadarlıq məclislərini və dəstələr təşkil etməyi Allahın istəyi ilə mükəmməl şəkildə və layiqincə qoruyarıq.

***

Pak İmamlar (ə) üçün yas saxlama ənənəsini davam etdirin, bunlar bizim dini ənənəmizdir. Qorunub saxlanılmalıdır. Bunlar siyasi ənənədir və qorunub saxlanılmalıdır. Əli qələmlilər sizi oyuncaq etməsin. Hər şeyinizi əlinizdən almaq istəyən şəxslər müxtəlif adlar və yanlış məramlarla sizləri oyuncaq etməsinlər.

***

Yığıncaqlar yerində qalmalıdır, əzadarlıq məclisləri təşkil edilməlidir. Mənbər əhli İmam Hüseyn (ə)-ın şəhadəti xatirəsini diri

saxlamalıdırlar. Millət var gücü ilə islam ənənələrini xüsusilə matəm mərasimlərini diri saxlamalıdır. Bunları diri saxlamaqla islam diri qalır.

***

Biz islam ənənələrini, Aşura, məhərrəm və səfər aylarında və yeri gəldikdə yaranan islam dəstələrini qorumağı və daha da çoxalmasına təkid etməliyik. Seyyidüş-şühəda (ə)-ın fədakarlığı islamı diri saxlamışdır. Ruhanilər və xətiblər tərəfindən Aşura keçmişdəki ənənəvi şəklində saxlanılmalı və xalq kütləsi keçmişdə olduğu kimi nizam-intizamlı böyük əza dəstələri yaratmalıdırlar.

***

Cənablar rözvə oxumaq mükəlləfiyyətindədirlər. Xalq kütlələrinin vəzifəsi əzəmətli dəstələr, sinə dəstələri təşkil etməkdir. Əlbəttə bəzi yararsız işlərdən çəkinməlidirlər. Lakin sinə dəstələri keçmişdə gördükləri işi indi də görməlidirlər, yığıncaq təşkil etməyi davam etdirməlidirlər. Həmin yığıncaqlar həmahəngliklər bizi saxlamışdır. Saf qəlbli əziz cavanlarımız aldadırlar. «Yaxşı, artıq nə üçün ağlayaq? Ağlamaq nəyimizə gərəkdir» - deyə qulaqlarına pıçıldayırlar.

***

Təsəvvür etməsinlər ki, Aşurada çıxan dəstələri biz küçə numayişinə çeviririk. Bunu özü nümayişdir, siyasi məzmunlu bir nümayiş, keçmişdə olduğu kimi, bəlkə də ondan daha üstündür. Sinə vurmalar, növhə demələr və elə-elə işlər qələbəmizin rəmzidir. Ölkənin hər yerində rovzə məclisi təşkil edilməlidir. Hamı rovzə oxumalı, hamı ağlamalıdır.

***

İnşallah xalq Aşura günü küçəyə çıxmalı və İmam Hüseyin (ə) əzədarlıq mərasimi qüdrətlə keçirilməli və nümayişələrdə İmam Hüseyin (ə) mərasimi keçirilməlidir.

***

Allah, millətimizi Aşurada keçmi ənənələri yerinə yetirməyə müvəffəq etsin dəstələr yaransın, sinə vurmaq və növbə demək layiqincə olsun. Bilin ki, bu millət rövza oxumaq, yığıncaqlar təşkil etmək və dəstələr yaratmaq sayəsində yaşayır.

## XƏTİBLƏR, NÖVHƏXANLAR VƏ ƏZADARLARA TAPŞIRIQ

Lazımdır ki, növhələrdə, mərsiyə və İmamların (ə) tərifində söylənən şeirlərdə zalımların bütün əsrlərdə və bu əsrdə (ki, islam dünyasının Amerika və Sovet və onlara bağlı olan o cümlədən ilahi hərəmə xəyanət edən Ali-səud[1] lənətullahi və məlaikətihi və rəsülihi əleyhim əlində məzlum olmaq əsridir) törətdikləri faciələr xatırlansın və lənət edilsin.

***

Mənbər əhli (Allah onlara kömək olsun) xalqı islamı mövzuları, islami-siyasi məsələlərə sövq etdirməyə çalışsınlar. İslami-ictimai məsələlərdən və rovzədən əl çəkməyin, çünki biz rovzə ilə yaşayırıq.

***

Xətiblər gündəlik məsələlərdən danışdıqdan sonra keçmişdəki kimi rovzə oxusunlar və mərsiyə desinlər və xalqa fədakarlıq ruhiyyəsi yaratsınlar.

***

Mənbərin sonunda rövzə oxusunlar, çox da oxusunlar, iki kəlmə olmasın, keçmişdə oxuduqları kimi oxusunlar. Əhli-beyt müsibəti və fəziləti haqqında şeir və nəsr söyləsinlər ki, xalqın ruhiyyəsi yüksəlsin, səhnədə olsunlar və bilsinlər ki, imamlarımız bütün ömürlərini islamı yaymağa həsr etmişlər. Onlar sazişə girsəydilər maddi cəhətlərdən tamamilə təmin olacaqdılar. Lakin özlərini islama qurban verib, zalımlarla sazişə girməlidirlər.

---

[1] «Ali-Səud» vahhabi məzhəb əmirlərin künyəsi (ləqəbi)-dir ki, 1147-ci hicri-qəməri ildən bu günə kimi Ərəbistan yarımadasına hökumət etmiş və bu yarımadanın adını «Səudi Ərəbistan» qoydular.

Vəhabilər nəzərlərinə görə sünni və şiədən ibarət olan bütün islam firqələri müşrik, kafir və bütpərstlər kimidirlər.

Bu xandanın Ərəb yarımadasına 268 il etdikləri hökmətin nəticəsi, yoxsulluq, bağlılıq, maddi və mənəvi məhrumluqlardan başqa bir şey deyildi.

***

Burada Əli ibn Hüseyn adına təşkil edilən əzadarlıq yığıncaqları haqqında danışmalıyıq. Biz və başqa heç bir dindar demir ki, bu adla hər hansı bir işi görmək yaxşıdır. Böyük ruhanilər və bir çox alimlər vaxtı ilə bəzi yararsız işlərə mane olmuşlar. Bildiyimizə görə iyirmi neçə il bundan əvvəl şiə ruhanilərindən biri olan böyük alim rəhmətlik hacı şeyx Əbdulkərim[1] Qumda şəbih çıxarmağı qadağan etdi və böyük məclislərdən birini rovzəxanlığa çevirdi. Bəzi başqa ruhani və alimlər də dinə zidd olan işləri qadağan etmiş və edirlər.

***

Bilin ki, hərəkatınızı davam etdirmək istəsəniz bu ənənələri qorumalısınız. Əlbəttə əgər keçmişdə islam məsələlərindən xəbərsiz olan şəxslərin vəsiləsi ilə yararsız işlər görülübsə, müəyyən qədər təmizlənməlidir. Əzadarlıq isə keçmişdə olduğu kimi davam etməlidir.

***

Dəstələrin əzəmətinə və məzmununa bax (Əlbəttə qeyri-şəri cəhətləri atılmalı, şəri cəhətləri isə saxlanılmalıdır), kim belə bir yığıncağı təşkil edə bilər.

[1] Ayətullahul-üzma hacı şeyx Abdulkərim Hairi Yəzdi (1276-1355 h.q.) IV əsr böyük işə fəqih və təqlid mərcələrindən idi. O ibtidai təhsilatını bitirdikdən sonra Nəcəf və Samirra şəhərlərinə gedib, Mirzə Büzürg Şirazi, Mirzə Məhəmmədtəqi Şirazi, Axund Xorasani, Seyidkazım Yəzdi və Seyid Məhəmməd İsfahani Fişarəki kimi ustadlardan təhsil aldı. 1332-ci (h.q.) ildə İraka gəldi, 1340-cı ildə isə Quma getdi. O mətəqənin şəxsiyyətlərinin təkidi nəticəsində və istixarə etdikdən sonra bu şəhərə sakin olub Qum Elmiyyə həvzəsini təsis etdi. Onun dərs hövzəcində imam Xomeyni həzrətləri başda olamaqla böyük alimlər yetişdi. Onun elmi əsərlərindən aşağıdakıların adını çəkmək olar: Üsul elmi səhasində «Dürərülfəvaid», fiqhdə «Əssalat», «Ənnikah», «Ərriza» və «Əlməvaris».

## MƏHƏRRƏM VƏ KƏRBALA QİYAMI HAQQINDA İMAM (R.Ə) HƏZRƏTLƏRİNDƏN GÖSTƏRİŞLƏR

Kərbalanı və Həzrəti Seyyidüş-şühədanın mübarək adını yaşadın, onların yaşaması ilə islam yaşayır.

***

Cümlə islam millətilərinin qanlarını qaynadan Seyyidüş-şühədanın qanıdır.

***

Qələbəmizin qaynağı olan söz birliyi əza və matəm məclisləri və islam təbliğ edən yığınacaqlardan irəli gəlmişdir.

***

Məhərrəm, şəhidlər ağası və övliyalar başçısının böyük qiyamının ayıdır ki, tağuta qarşı qiyam etməklə bəşəriyyətə quruculuq və mübarizə təlimini verdi və zalımın məhv olmasını və zülmkarların tapdalanmasını qurban verməkdə və qurban olmaqda bildi. Bunun özü isə millətimiz üçün islam təlimlərinin əbədilik başlığıdır.

***

Məhərrəm elə bir ayıdır ki, onda ədalət zülmlə və haqq batilə qarşı qiyam edib, tarix boyu həmişə haqqın batilə qalib olduğunu sübut etmişdir.

***

Ağlın cəhalətə, ədalətin zülmə, sədaqətin xəyanətə və islam hökumətinin tağut hökumətinə qarşı qələbəsini nümayiş etdirən, məzlumlar ağası və azadələr başçısının xatirə məclisləri olduqca əzəmətli keçirilməli və məzlumların zalımlardan intiqam almasının əlaməti olaraq Aşuranın qanlı bayrağı daha da yüksəldilməlidir.

***

İranın islam inqilabı Aşura və böyük ilahi inqilabdan saçan bir şüadır.

***

Şiə məzhəbində məhərrəm ayı qələbənin fədakarlıq və qanla əldə edilməsini sübut edən ayıdır.

***

İslamı yaşadan məhərrəm və səfər aylarıdır.

***

Əhli-beyt (ə)-ın müsibətlərini zikr etmək, məhərrəm və səfər aylarını yaşatmalıyıq. Çünki bu məzhəb Əhli-beyt müsibətlərini zikri sayəsində indiyə kimi yaşamışdır.

***

Seyyidüş-şühəda islam üçün özünü ölümə verdi.

***

Həzrəti Seyyidüş-şühəda öldürdülər, lakin (bu ölmək) Allaha itaət etmək idi, Allah üçün idi, onun bütün heysiyyəti idi. Buna görə də məğlubiyyət deyildir, itaət idi.

***

Seyyidüş-şühəda da Kərbalada məğlub oldu, lakin bu, məğlubiyyət deyildir. Özü öldü və bir dünyanı diriltdi.

***

Seyyidüş-şühəda islamın fəryadına çatdı, Seyyidüş-şühəda islama nicat verdi.

***

İslamı bizim üçün yaşadan Seyyidüş-şühəda (ə)-ın fədakarlığıdır.

***

Növhələrdə, mərsiyə və haqq imamlarının mədhində deyilən şeirlərdə zülmkarların bütün əsrlərdə etdikləri zülm və törətdikləri faciələr nifrətlə xatırlanmalıdır.

***

Güman etməyin ki, əgər əza məclisləri, sinə və növhə dəstələri 15 Xordad (qiyamı) baş verəcəkdi.

***

Diqqət etsəniz, o dövrün ən yaxşı yaranmışları (adamları) yəni Həzrəti Seyyidüş-şühəda (ə), Bəni-Haşim cavanları və onun səhabələri şəhid oldular və şəhadətlə dünyadan getdilər, lakin əclaf Yezid məclisində gedən söhbətlərdə cənab Zeynəb (s.ə) and içir ki, «Ma rəeyna illa cəmila» yəni «Kərbalada gözəllikdən başqa bir şey görmədik». Kamil bir insanın dünyadan getməsi, şəhid olması Allah övliyalarının nəzərində gözəldir. Bu da döyüşdə öldükləri üçün deyil, bu döyüşün və bu qiyamı Allah yolunda olduğu üçün idi.

# MÜNDƏRİCAT

**MÜQƏDDİMƏ**........ 5
**BİRİNCİ HİSSƏ**........ 6
Məhərrəm və aşura haqqında üç çıxış:........ 6
1 – Tehranın qərb hissəsi ruhanilərinin yığıncağı qarşısında........ 6
2 – Qum və Tehrandan gəlmiş bir necə alim, ruhani və pişnamazların yığıncağında........ 9
3 – Qum, Tehran qərbi və şərqi Azərbaycan ustanlarından gəlmiş bir dəstə ruhani və vaizlərin yığıncağında........ 13
**İKİNCİ HİSSƏ**........ 18
Proloq........ 18
Məhərrəm şəhid olmağın qızıl kitabıdır........ 18
**BİRİNCİ FƏSİL**........ 20
Aşura qiyamının səbəbləri və amilləri........ 20
Aşura qiyamının hədəfləri........ 26
Kərbala şəhidlərinin şüurlu seçimi........ 31
Əba Əbdillah qiyamının nəticə və izləri........ 33
Aşura qiyamı azadələrin yoludur........ 39
**İKİNCİ FƏSİL**........ 45
Yas və rövzənin hikməti........ 45
İslam və Seyyidüş-şühəda məktəbinin bərpasında əzadarlığın əhəmiyyəti və rolu........ 50
Əzadarlığın millət və ölkəni qorumaqda rolu........ 56
Aşura qiyamını qeyd etmək ilahi ənənələrdəndir........ 60
Xətiblər, növhəxanlar və əzadarlara tapşırıq........ 63
Məhərrəm və Kərbala qiyamı haqqında imam (r.ə) həzrətlərindən göstərişlər 65

Bizim vəzifəmizi Seyyidüş-şühəda müəyyən etmişdir. Döyüş meydanında sayınızın azlığından və şəhadətdən qorxmayın, əzəmətiniz qədər, ideyanızın yüksəkliyi qədər zəhmətə qatlaşmalısınız.

**Ayətullah Ruhullah Müsavi Xomeyni**